De: Gəlin Rəbbinizin sizə nələri haram etdiyini deyim: Ona heç bir şərik qoşmayın; ata-anaya yaxşılıq edin; kasıblıq üzündən uşaqlarınızı öldürməyin. Sizin də, onların da ruzisini Biz veririk. Açıq və gizlin pis işlərə yaxın düşməyin. Allahın (qətlini) haram buyurduğu cana qıymayın...

*(Qurani-Kərim, Ənam, 151)*

**“Qlobal transformasiyalar dövründə Azərbaycan milli ideyası”**

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyevin “Qlobal transformasiyalar dövründə Azərbaycan milli ideyası” kitabı Moskvanın “Politiçeskaya ensiklopediya” nəşriyyatı tərəfindən çap edilib.

Akademik Ramiz Mehdiyevin iki cildlik əsərinin bu kitabı XX əsrin sonunda müstəqil Azərbaycan dövləti yaradılması probleminin təhlilinə, müasir dövrdə milli identikliyin formalaşmasına həsr edilib. Əminliklə demək olar ki, bu sanballı tədqiqatda Azərbaycan xalqının milli ideyasının formalaşmasının və reallaşmasının əsas mərhələləri ilk dəfə açıqlanır.

davamı səh. 3

DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 3 (308) / MART 2017-Cİ İL




İki aydan sonra Azərbaycan IV Dünya Mədəniyyətlərarası Dialoq Forumuna ev sahibliyi edəcəkdir. Bu da bir ənənəvi tədbirə çevrilmişdir və onun həmtəşkilatçıları UNESCO, ISESCO, Avropa Şurası, Dünya Turizm Təşkilatı və BMT-nin Sivilizasiyalar Alyansı kimi beynəlxalq təşkilatlardır. Yəni, bu, bir qlobal tədbirdir, mən deyərdim ki, dünyada mədəniyyətlərarası və dinlərarası dialoq məsələlərinin müzakirəsinə həsr edilmiş bənzərsiz bir tədbirdir.

Azərbaycanın seçilməsi yalnız bizim bu tədbirin təşəbbüskarı olmağımız ilə bağlı deyil. Bu, bizim sivilizasiyalar və dinlər arasında oynadığımız körpü rolu ilə bağlıdır. Azərbaycanda dini dözümlülük və multikulturalizm ənənəsi artıq kifayət edir ki, biz belə bir müsbət tədbirin mərkəzində olaq.

Biz həmin foruma və bu hərəkata böyük əhəmiyyət veririk. Çünki bu gün dünyanın məhz buna ehtiyacı var. Çıxışımın əvvəlində dediyim kimi, təəssüflər olsun ki, biz dialoq haqqında danışırıq, ancaq əslində özgələşdirmənin şahidi oluruq. Tolerantlıq haqqında danışırıq, ancaq nifrətin şahidi oluruq. Bunlar artmaqdadır və bu, hamımız üçün təhlükədir. İstər bunun baş verdiyi ölkələr olsun, istərsə də bundan əziyyət çəkənlər üçün.

Bu səbəbdən Azərbaycanın mədəniyyət körpüsü rolu olduqca vacibdir. Eyni zamanda, bu gün ölkəmizin müsbət, dayanıqlı, təhlükəsiz və sabit inkişafı onu nümayiş etdirir ki, yalnız qarşılıqlı etimad və multikulturalizm, habelə başqalarının ənənə, din və kökünə hörmət ruhunda uğura imza atmaq olar.

Azərbaycan çoxkonfessiyalı və çoxmillətli ölkədir və bu, bizim böyük sərvətimizdir. Biz nümayiş etdiririk ki, yalnız bu yolla inkişaf etmək olar. Özünütəcrid, nifrət hisslərinin bəslənilməsi və ya özünün digərlərindən üstün tutulması bumeranq effekti verəcək və nəticədə bu işlə məşğul olanların özlərinə xələl gətirəcək.

**Prezident İlham Əliyevin**
**V Qlobal Bakı Forumundakı nitqindən**
**Bakı, 16 mart 2017-ci il.**

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı tədbir keçirilib

Martın 30-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı tədbir keçirilib. Tədbirdə DQİDK-nın sədri, sədr müavinləri, eləcə də Mərkəzi Aparatının və bölgə şöbələrinin müdirləri iştirak ediblər.



Tədbirdə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı ermənilərin xalqımıza qarşı müxtəlif dövrlərdə həyata keçirdikləri soyqırımı və işğalçılıq siyasəti barədə məlumat verib. Bildirib ki, iki yüz ildən artıqdır ki, erməni millətçiləri tərəfindən xalqımıza qarşı ardıcıl soyqırımı və təcavüz siyasəti aparılır. Ermənilərin ölkəmizə qarşı mənəvi, ideoloji tərəfdən basqınları, mənhus planları bugünədək davam edir. 1918-ci ildə erməni millətçiləri tərəfindən törədilmiş qanlı faciənin tarixi haqqında danışan Mübariz Qurbanlı məhz Ümummilli Lider Heydər Əliyevin 1998-ci il martın 26-da imzaladığı “Azərbaycanlıların Soyqırımı haqqında” Fərmanının tarixin qaranlıq səhifələrinə işıq salmağa imkan verdiyini diqqətə çatdırıb. O qeyd edib ki, bu Fərman uzun illər bundan əvvəl baş vermiş hadisələr barədə həqiqəti açıqladı, xalqın yaddaşını təzələdi, onu öz tarixi köklərinə, mənəvi-əxlaqi dəyərlərinə, Vətənə məhəbbət duyğularına qaytardı. Azərbaycan dövləti azərbaycanlı əhaliyə qarşı soyqırımı və etnik təmizləmələr haqqında həqiqəti beynəlxalq ictimaiyyətə çatdırılmasının əsasını qoymuş oldu.

Komitə sədri çıxışında 1918-ci ildə bolşevik-erməni silahlı dəstələrinin Azərbaycan torpaqlarında həyata keçirdikləri kütləvi qırğınlar nəticəsində həlak olan on minlərlə azərbaycanlının xatirəsinə ucaldılan, gələcək nəsillərin milli yaddaşını qorumaq və soyqırımı qurbanlarının xatirəsini əbədiləşdirmək məqsədilə Quba şəhərində “Soyqırımı Memorial Kompleksi”nin soyqırımı barədə dünya ictimaiyyətinin məlumatlandırılması üçün mühüm rol oynadığını xüsusi vurğulayıb.

Mübariz Qurbanlı qeyd edib ki, 31 Mart soyqırımının qurbanları daim yad edilməli, bu məlumatlar yetişməkdə olan nəslə çatdırılmalıdır. Komitə sədri Dövlət Komitəsinin əməkdaşlarına həyata keçirilən maarifləndirmə tədbirlərində tarixi faktların əhalimizə, xüsusilə gənclərə çatdırılmasına xüsusi önəm vermələrini tövsiyə edib.

Anım mərasimindən sonra 2017-ci ilin ölkəmizdə “İslam Həmrəyliyi İli” elan edilməsi ilə əlaqədar olaraq Dövlət Komitəsi tərəfindən görülmüş işlər və həyata keçirilməsi nəzərdə tutulan tədbirlər barədə fikir mübadiləsi aparılıb və müvafiq tapşırıqlar verilib. Eyni zamanda, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Mərkəzi Aparatının və bölgə şöbələrinin müdirlərinin hesabat məruzələri dinlənilib. Məruzələrdə ölkədəki mövcud dini durum, dövlət-din münasibətləri, dövlətin dinə qayğısı, Azərbaycanın zəngin tolerantlıq ənənələri, milli-mənəvi dəyərlərimizin qorunması və digər aktual məsələlərlə bağlı müzakirələr aparılıb.

# Bakıda "İslam həmrəyliyi - zamanın çağırışı" mövzusunda beynəlxalq konfrans keçirilib



## "İslam həmrəyliyi – zamanın çağırışı" Beynəlxalq konfransının iştirakçılarına

Hörmətli konfrans iştirakçıları!

Sizi - "İslam həmrəyliyi – zamanın çağırışı" mövzusunda Bakıda keçirilən Beynəlxalq konfransın iştirakçılarını səmimi qəlbdən salamlayır, ən xoş arzu və diləklərimi yetirirəm.

Avropa ilə Asiyanın qovuşuğunda yerləşən qədim Azərbaycan torpağında müxtəlif dinlərə, ayrı-ayrı mədəniyyətlərə mənsub insanlar tarix boyu əmin-amanlıq şəraitində yaşamışdır. Azərbaycan xalqı bu gün də özünün dərin tarixi köklərə malik zəngin tolerantlıq və multikulturalizm ənənələrini qoruyur, sivilizasiyalararası dialoqa, islamdaxili və konfessiyalararası həmrəyliyə öz töhfələrini verir. Buna görə də zamanın çağırışlarına səs verən İslam həmrəyliyinə həsr olunmuş konfransın keçirilmə məkanının dəqiq seçilməsi şübhəsizdir.

Məmnuniyyət hissi ilə qeyd etmək istəyirəm ki, 2016-cı il ölkəmizdə "Multikulturalizm İli" elan olunduqdan sonra xalqımız öz tarixi mənəvi ənənələrinə sadiqliyini böyük coşqunluqla bir daha nümayiş etdirdi. Bu münasibətlə Azərbaycanda və xaricdə bir sıra əhəmiyyətli və faydalı tədbirlər keçirildi. Dünyada multikulturalizmin Azərbaycan modelinə xüsusi maraq və diqqət yarandı. Bütün bunlar ona gətirdi ki, ötən ilin məntiqi davamı olaraq 2017-ci il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edildi.

Müasir dünyamızda İslam həmrəyliyinin vacibliyi ilk olaraq İslam daxilindəki həmahəngliyin bərqərar edilməsində özünü göstərir. Bu, müxtəlif məzhəblər arasında dini anlaşılmazlıqların elmi müstəvidə aradan qaldırılması, bütün İslam ölkələri arasında qarşılıqlı hörmət və etibara əsaslanan münasibətlərin qurulmasıdır. Bununla yanaşı, İslam həmrəyliyi dedikdə, həmçinin İslam ilə digər dinlər arasında da harmoniyanın yaranması da nəzərdə tutulur. Buna nail olmaq, əslində, dünya dinləri arasında ahəngdar və bir-birinə inamlı münasibətin daha da möhkəmlənməsinə, İslam ölkələri ilə digər ölkələr arasında bəşəri dəyərlərə əsaslanan xoş münasibətlərin inkişafına nail olmaq deməkdir. Bunun üçün çox işlər görmək, real addımlar atmaq lazımdır. Sizin konfransınız Azərbaycanda İslam həmrəyliyi ilə əlaqədar bu istiqamətdə görüləcək işlərin artıq başlanmasına ciddi bir işarədir. Bu gün İslama və digər konfessiyalara mənsub görkəmli alimlərin və din xadimlərinin dinlərarası mühüm aktual məsələləri belə yüksək səviyyədə müzakirə etmələri özünün müstəsna elmi-dini əhəmiyyəti ilə yanaşı, müsəlman dövlətləri və xalqları, eyni zamanda, dünya dövlətləri və xalqları arasında qardaşlıq və əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə xidmət etməlidir. Ümidvaram ki, konfrans nəinki İslam aləmində, bütün dünyada həmrəylik və dostluğun daha da möhkəmlənməsi işinə öz layiqli töhfəsini verəcəkdir.

Bu nəcib fəaliyyətinizdə bir olan uca Allahdan Sizə könül xoşluğu, cansağlığı və konfransınızın işinə uğurlar arzulayıram.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 15 mart 2017-ci il**

Martın 15-də Bakıda Qafqaz Müsəlmanları İdarəsi (QMİ), Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK), Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi - zamanın çağırışı" mövzusunda beynəlxalq konfrans keçirilib.

Konfransda Qurani-Kərimdən ayələr oxunduqdan sonra "Azərbaycanda multikulturalizm dəyərləri" filmi nümayiş olunub. Daha sonra konfrans işini bölmə iclasları ilə davam etdirib.

Birinci bölmə iclasının moderatoru – Şeyxülislam Allahşükür Paşazadə bildirib ki, İslamın təlqin etdiyi birlik, ədalət, əxlaqi təkamül ideyaları həm müsəlman ümməti, həm bütün qeyri-müsəlmanlar üçün mühüm dəyər kəsb edir. Şeyxülislam bildirib ki, əsrlər boyu İslam sivilizasiyasının ayrılmaz hissəsi kimi müsəlman intibahında mühüm rol oynamış Azərbaycan bu gün də İslam dünyasının önündə gedən dövlətlərdən biridir və ölkəmiz ümumbəşəri əhəmiyyət daşıyan ideyaların bütün dünya ictimaiyyətinə ünvanlandığı ənənəvi məkan statusunu qorumaqdadır: "Tarixən çoxmillətli və çoxkonfessiyalı ölkə, islami dəyərlər, multikultural ənənələr diyarı olan Azərbaycanda, şükürlər olsun ki, sabitlik mövcuddur. Milli və dini tolerantlıq dövlət səviyyəsində dəstəklənir. Təbii ki, burada dövlətimizin başçısının siyasi iradəsi böyük önəm daşıyır".

Şeyxülislam Allahşükür Paşazadə Azərbaycanda dini-mənəvi irsin elmlə dinin vəhdəti zəminində inkişaf etdiyini, ölkəmizdə islami maarifləndirmə işinə böyük önəm verildiyini diqqətə çatdırıb. Bildirib ki, İslam dəyərlərinin ümumbəşəri əhəmiyyətinə önəm verən dövlətimizin başçısı İlham Əliyev müqəddəs dinimizin sülhsevər mahiyyətinin dünya miqyasında təbliği istiqamətində yorulmaz səy göstərir. Azərbaycanın dəstəyi ilə Parisdəki Luvr muzeyində İslam mədəniyyəti bölməsinin açılması, Vatikanda ilk dəfə olaraq müsəlman ölkəsi Azərbaycanın sərgisinin təşkili bizim ümumislam mədəniyyətinə olan töhfəmizdir. İslam Həmrəyliyi Oyunlarının keçirilməsi üçün Bakının seçilməsi də buna bariz nümunədir.

QMİ sədri Azərbaycanın multikulturalizm sahəsində olduğu kimi, İslam həmrəyliyi istiqamətində də səyləri ilə dünyaya nümunə göstərdiyini vurğulayaraq deyib: "Dinlərarası və mədəniyyətlərarası dialoq və əməkdaşlığa önəmli töhfələr vermiş Mehriban xanım Əliyevanın Birinci vitse-prezidentlik dönəmi də xalqımız və dövlətimiz üçün xeyirlərə vəsilə, dövlətimizin qlobal əhəmiyyətli məsələlərin həllinə töhfəsinin artmasına səbəb olacaqdır, İnşallah".

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Kamal Abdullayev Prezident İlham Əliyevin konfrans iştirakçılarına ünvanladığı təbrik məktubunu oxuyub.

AMEA-nın prezidenti, akademik Akif Əlizadə "İslam həmrəyliyinin Azərbaycan modeli və onun elmi-praktiki inkişaf perspektivləri" mövzusunda çıxış edərək İslam dininin elmə, elm öyrənməyə yüksək münasibətindən danışıb. Qeyd edib ki, çağdaş Avropa elminin bünövrəsini məhz orta əsrlər İslam elmi təşkil edir.

DQİDK-nın sədri Mübariz Qurbanlı bildirib ki, beynəlxalq miqyasda sülhə, əmin-amanlığa nail olmaq, müxtəlif yönümlü münaqişələri aradan qaldırmaq, milli, dini, irqi zəmində nifrət və qarşıdurmalara son qoymaq, bəşəriyyətin üzləşdiyi sosial, iqtisadi, ekoloji, demoqrafik və s. problemləri həll etmək üçün bu çağırışlara vaxtında cavab olduqca vacibdir.

M.Qurbanlı bildirib ki, bu il çox önəmli beynəlxalq tədbir olan IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsi müstəqil ölkəmizin müsəlman dünyasındakı nüfuzundan xəbər verir. Milli-mənəvi dəyərlərin qorunması, tolerant və multikultural dəyərlərin təbliği sahəsində Azərbaycanın Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun ardıcıl və təqdirəlayiq fəaliyyətinin də xüsusi rolu var.

Konfransda, həmçinin Mədəniyyət və turizm naziri Əbülfəs Qarayev, Azərbaycanın xarici işlər nazirinin müavini Xələf Xələfov, DQİDK-nın sədr müavini Gündüz İsmayılov, İslam Əməkdaşlıq Təşkilatı Parlament Birliyinin baş katibi Mahmud Erol Kılıç, Milli Məclisin ictimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov, Milli Məclisin deputatı, Azərbaycan Ağsaqqallar Şurasının sədri Fəttah Heydərov, QMİ Elmi-Dini Şurasının sədri, akademik Vasim Məmmədəliyev, AMEA Şərqşünaslıq İnstitutunun direktoru Gövhər Baxşəliyeva, BBMM-in icraçı direktoru Azad Məmmədov, AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli, digər ölkələri təmsil edən alimlər, diplomatik korpusun nümayəndələri, xarici qonaqlar, yerli dini icmaların rəhbərləri və başqaları çıxış ediblər.

Onlar öz çıxışlarında bildiriblər ki, Azərbaycan Prezidentinin Sərəncamı ilə 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan olunması bütün müsəlman aləminə və dünyaya xoşməramlı bir mesajdır. İslam dininin əsl mahiyyətinin dəyişdirildiyini, səhv cərəyanların meydana gəldiyini təəssüf hissi ilə qeyd edən məruzəçilər terrorizmə və ekstremizmə qarşı bütün dinlərin birgə hərəkət etməsinin vacibliyini vurğulayıblar. Dünyada müxtəlif dinlərin harmonik şəkildə yaşaması üçün Azərbaycanın ən yaxşı nümunə olduğunu deyən qonaqlar ölkəmizin sülh təşəbbüslərini dəstəklədiklərini bildiriblər.

Vurğulanıb ki, İslam dini sülh dinidir, terrorizmdən çox uzaqdır. Hazırda dünya İslam adı altında bir sıra terror fəaliyyətləri ilə üzləşir. Biz real, birgəyaşayışı təbliğ edən İslamı dünya birliyinə nümayiş etdirməliyik. İslam başqa dinləri birgəyaşayışa dəvət edir. Dinlərarası dialoq bütün dinlər üçün dəvətdir. Bu gün İslama real dəstək verənlərə böyük ehtiyac var. Qeyd olunub ki, müsəlman ölkələrinin həmrəyliyi insani münasibətlərin qurulması üçün çox mühüm amildir və bu, cəmiyyətdə multikulturalizmi və sabitliyi təmin edir.

Konfransı dünyada sülhün, əmin-amanlığın bərpası istiqamətində atılan addım kimi qiymətləndirən qonaqlar konfransın yüksək səviyyədə təşkilinə görə Azərbaycanın dövlət rəhbərliyinə minnətdarlıqlarını bildiriblər.

Tədbirdə Novqorod və Starorus Mitropoliti Lev Moskva və Bütün Rusiya Patriarxı Kirillin, Gürcüstan Pravoslav Kilsəsinin nümayəndəsi Yepiskop Dmitriy Kapanadze isə Patriarx II İliyanın konfrans iştirakçılarına məktublarını oxuyublar.

Sonda Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini Qəmərxanım Cavadova beynəlxalq konfransın iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə təşəkkür məktubunu oxuyub və beynəlxalq konfransın dünya ictimaiyyətinə müraciəti qəbul olunub.

"İslam həmrəyliyi - zamanın çağırışı" beynəlxalq konfransı işini başa çatdırdıqdan sonra QMİ sədri Şeyxülislam Allahşükür Paşazadənin iqamətgahında konfransda iştirak edən qonaqların şərəfinə ziyafət verilib.

# 2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi ilə əlaqədar Qafqaz Müsəlmanları İdarəsi tərəfindən keçiriləcək bir sıra tədbirlərin maddi təminatı haqqında Azərbaycan Respublikası Prezidentinin

# Sərəncamı

Zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik Azərbaycan ən qədim sivilizasiya mərkəzlərindən biri olub, uzun əsrlərdən bəri müxtəlif dinlərə mənsub insanların dostluq və əmin-amanlıq şəraitində yaşadığı diyardır. Burada ümumbəşəri dəyərləri ehtiva etməklə ölkəmizin İslam aləmində özünəməxsus mövqeyi ilə seçilməsinə yol açan və onu eyni zamanda dinlərarası dialoqun bənzərsiz məkanı olaraq tanıdan yeni mühit təşəkkül tapmışdır.

2017-ci ilin Azərbaycan Respublikasında "İslam Həmrəyliyi İli" elan edilməsi beynəlxalq ictimaiyyət tərəfindən zamanın çağırışlarına cavab verən çox əhəmiyyətli addım kimi böyük rəğbətlə qarşılanmışdır.

"İslam Həmrəyliyi İli" çərçivəsində Qafqaz Müsəlmanları İdarəsi tərəfindən Azərbaycanın müxtəlif bölgələrində məscid və ziyarətgahlarda, ictimai yerlərdə tanınmış dövlət və din xadimlərinin, müxtəlif dini konfessiya üzvlərinin və ictimaiyyət nümayəndələrinin iştirakı ilə maarifləndirici tədbirlər, habelə bir sıra xarici ölkələrdə konfranslar keçirilməsi nəzərdə tutulur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, İslam dini dəyərlərinin qorunub saxlanılması, təbliği və bu sahədə beynəlxalq səviyyədə əməkdaşlığın daha da möhkəmləndirilməsi istiqamətində silsilə tədbirlərin həyata keçirilməsi məqsədi ilə qərara alıram:

1. "İslam Həmrəyliyi İli" çərçivəsində Qafqaz Müsəlmanları İdarəsi tərəfindən keçiriləcək tədbirlərin maddi təminatı üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 3,0 (üç) milyon manat ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 17 mart 2017-ci il.**

əvvəli səh. 1

# "Qlobal transformasiyalar dövründə Azərbaycan milli ideyası"

Azərbaycanın dövlət müstəqilliyinin 25 illik dövrü ölkəmizin ictimai-siyasi, iqtisadi həyatında ən müxtəlif hadisələrlə zəngindir. Müstəqil Azərbaycanın ilk illəri ölkədə hökm sürən qeyri-sabitliklə bağlı xaotik proseslərlə, dövlətçiliyin olmaması, o vaxtkı iqtidarın dövlətin əsaslarını möhkəmlədə, Azərbaycan xalqının müharibəyə cəlb etmiş ümumi düşmənə qarşı davam gətirə bilməməsi ilə yadda qalıb. Filosof alim Ramiz Mehdiyev müstəqilliyin ilk illərində gedən prosesləri hərtərəfli təhlil edərək məhz dövlət quruculuğunun struktur xassələrini açıqlayır, milli ideyanın və dövlətçiliyin yaradılması üçün zəruri olan əsas elementləri nəzərdən keçirir. Müəllif göstərir ki, iqtidar dövlətçiliyin fəlsəfi əsasını, dövlət quruculuğunun möhkəmlənməsi üçün zəruri olan struktur elementlərini anlamadığı o təlatümlü illərdə belə məsələlərin reallaşdırılması mümkün deyildi. Akademik Ramiz Mehdiyev qeyd edir ki, ölkəni bu cür sistemsiz vəziyyətdən çıxarmağa yalnız dövlətçiliyin əsaslarını dərindən bilən şəxsiyyət nail oldu: "Məhz xarizma, öncəgörmə, iradi keyfiyyətlər, təcrübə, başqa sözlə desək, Heydər Əliyev şəxsiyyəti həmin dövrdə bizim üçün sistem əhəmiyyəti kəsb edən "millət, dövlətçilik", "idarəetmə sistemi", "hakimiyyət", "inkişaf etmiş iqtisadiyyat", "mənəvi dirçəliş", "liderlik", "transformasiya", "çoxvektorluluq" kimi dəyərlərin – XXI əsrdə müstəqil Azərbaycan dövlətinin mahiyyətini açıqlayan dəyərlərin təşəkkülündə və möhkəmlənməsində çox mühüm rol oynadı".

Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə dövlətçiliyin qurulması dövrünü nəzərdən keçirən akademik Ramiz Mehdiyev qeyd edir ki, 1993-cü ilin ortalarından başlayaraq Azərbaycan öz strateji seçimini etdi. Azərbaycan müasir, dünyəvi, beynəlxalq aləmə inteqrasiya edən, demokratiyanın əsaslarına sadiq olan ölkə kimi inkişaf etməyə başladı. Məhz Heydər Əliyevin milli müstəqilliyin, dövlət suverenliyinin qorunub saxlanması, milli identikliyin inkişaf etdirilməsi siyasəti sayəsində azərbaycançılıq Azərbaycan cəmiyyətini birləşdirən milli ideyaya çevrildi. Akademik Ramiz Mehdiyev yazır: "Bu gün azərbaycançılıq milli inkişaf ideologiyası kimi müxtəlif xalqların, mədəniyyətlərin, ənənələrin, konfessiyaların üzvi şəkildə birləşməsi deməkdir. O, güclü dövlət hakimiyyətinin mövcudluğuna və milli maraqları ifadə edən yüksək milli intizama, formalaşmaqda olan milli mənlik şüuruna əsaslanır, ən müxtəlif sosial təbəqələrdə həmrəylik axtarır, millətin və dövlətin öz potensialından irəli gələn, təkamülə əsaslanan daimi islahatçılığı təbliğ edir".




Müəllif kitabda milli ideyanın formalaşması mərhələlərini ətraflı təsvir edir, bu ideyanın təşəkkülündə Azərbaycanın tarixi şəxsiyyətlərinin, mədəniyyət xadimlərinin rolunu təhlil edir, Azərbaycan etnomədəni məkanına xas olan modelləri nəzərdən keçirir. Alim XXI əsrdə Azərbaycan ideyasının inkişafı yollarını da diqqət mərkəzində saxlayır. Akademik Ramiz Mehdiyev tarixi prosesləri, müasir dünyada mövcud meyilləri və Azərbaycanın imkanlarını nəzərə alaraq əmin olduğunu bildirir ki, ölkəmiz keyfiyyətcə yeni texnoloji cəmiyyətə keçməlidir: "Kreativ və ağıllı insanların, yaradıcı enerjiyə malik intellektualların sayının artması Azərbaycanda inkişaf etmiş müasir cəmiyyət yaradılmasına gətirib çıxaracaq hərəkətverici qüvvə ola bilər. Millətin bu keyfiyyətləri milli ideyanın maddiləşməsinin əsas tərkib hissəsi kimi ölkənin innovasiyalı modernləşməsinin əsasını təşkil etməlidir".

Alim qeyd edir ki, 2003-cü ildə başlanmış yeni inkişaf mərhələsi bu gün dövlətimiz tərəfindən ölkənin bütünlüklə modernləşməsinə nail olmaq üçün davam etdirilir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan insan kapitalının yaradılması, elmin ən yeni nailiyyətlərinin, yeni texnologiyaların və yeni idarəçilik metodlarının tətbiq edilməsi əsasında bu hədəfə çatmağı qarşıya məqsəd qoyub. Bu baxımdan kitabda milli kreativ elitanın formalaşmasının müəllif tərəfindən qeyd edilən yolları, nümayəndələri innovasiyalara oriyentasiya edən, iqtisadi inkişafı hədəf seçən kreativ sinfin tərifi diqqəti cəlb edir.

Müəllif bu fundamental əsərində gələcək Azərbaycanın qurulmasında gəncliyin rolunu, informasiya cəmiyyətində onun yerini və innovasiyalı inkişafda gənclərin iştirakını təhlil edir. Akademik Ramiz Mehdiyev qəti əmin olduğunu bildirir ki, Prezident İlham Əliyevin dövlətçilik istedadı sayəsində Azərbaycan xalqı bundan sonra da XXI əsrin tələbləri səviyyəsində sosial-iqtisadi inkişaf, milli ideya məsələlərinin həlli yolu ilə irəliləyəcək. Müəllif əmindir: "Bu quruculuq yolu Azərbaycanı yeni postsənaye cəmiyyətinə gətirib çıxaracaq".

Min nüsxə tirajla çap edilmiş kitab sosial inkişafın müasir nəzəriyyələri ilə maraqlanan oxuculara ünvanlanıb.

# Mübariz Qurbanlı Şabranda vətəndaşların müraciətlərinə baxıb

Prezident İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşların qəbulunu davam etdirirlər.

Martın 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Şabrandakı Heydər Əliyev Mərkəzində şimal bölgəsindən olan sakinləri qəbul edib.

Quba, Qusar, Xaçmaz, Şabran və Siyəzən rayonlarından olan vətəndaşlar əsasən dini icmaların dövlət qeydiyyatı və fəaliyyəti, dini maarifləndirmə ilə əlaqədar icmalara vəsaitlərin ayrılması, məscidlərin təmiri, Quran kurslarının təşkili və digər məsələlərlə bağlı müraciət ediblər.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı vətəndaşların müraciətlərini diqqətlə dinləyərək, qaldırılan məsələlərdən bəzilərinin həlli, bəzilərinin isə araşdırılması üçün göstərişlər verib. Komitənin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətlər isə baxılması və müvafiq tədbirlər görülməsi üçün aidiyyəti qurumlara çatdırılmaq məqsədilə qeydiyyata alınıb.



## Növbəti qəbul

***Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı aprelin 21-də Qobustanda vətəndaşları qəbul edəcək.***

***Əhatə olunan şəhər və rayonlar: Qobustan, Şamaxı, Ağsu, İsmayıllı.***

# Dövlət müşaviri Kamal Abdullayev "Salaam Şalom Qardaşlığı" təşkilatının nümayəndələri ilə görüşüb

Azərbaycanda səfərdə olmuş antisemitizm və islamafobiyaya qarşı mübarizə aparan yəhudi və müsəlman qadınlardan ibarət "Salaam Şalom Qardaşlığı" təşkilatının üzvləri martın 13-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM)

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, BBMM-in Himayəçilik Şurasının sədri, akademik Kamal Abdullayevlə görüşüblər.

Dövlət müşaviri Azərbaycanda mövcud olan multikultural əhvalın bəzi nüanslarına diqqəti yönəldib: "Xaricdən ölkəmizə gələn qonaqlar Prezident İlham Əliyevlə görüşərkən öz heyrətlərini gizlədə bilməyərək soruşurlar: necə olur ki, Azərbaycanda yəhudilər, xristianlar, müsəlmanlar və eləcə də onlarla xalqın nümayəndəsi bir arada dostcasına, heç bir konflikt olmadan yaşaya bilir? Azərbaycan Prezidenti isə cavabında onların sualına sualla cavab verir: "Başqa cür necə ola bilər?" Məhz bu - "Başqa cür necə ola bilər?" - sualı Azərbaycan multikulturalizminin canını təşkil edir.



Başqa konfessiyalar, başqa xalqların nümayəndələri olmadan biz öz birgəyaşayışımızı, həyatımızı təsəvvür etmirik. Azərbaycan Prezidenti 2016-cı ili ölkəmizdə "Multikulturalizm ili" elan etmişdi. Həmin il çərçivəsində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi dünyanın 15-ə yaxın ölkəsində Azərbaycan multikulturalizmi fənninin tədrisini aparıb, kitablar nəşr edib, müxtəlif ölkələrdə bu qurumun filialları açılıb, beynəlxalq multikulturalizm qış və yay məktəbləri təşkil olunub. 2017-ci il isə ölkə başçısının Sərəncamı ilə "Multikulturalizm ili"nin məntiqi davamı sayılan "İslam Həmrəyliyi İli" elan olunub".

Akademik Kamal Abdullayev Azərbaycanda mövcud olan yəhudi icmaları haqqında qonaqlara məlumat verib və bildirib ki, ölkəmizdəki yəhudilər sərbəst şəkildə ibadət edir, öz dini bayramlarını layiqincə qeyd edirlər.

Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin baş məsləhətçisi professor Etibar Nəcəfov, BBMM-in müşaviri professor Aytən Qəhrəman təşkilatla gələcək əməkdaşlığın genişləndirilməsi perspektivlərindən və bunun birgə gələcək layihələrə zəmin yaradacağından söz açıblar.

"Salaam Şalom Qardaşlığı" təşkilatının nümayəndəsi xanım Şeril Olitzkiy təmsil olunduğu təşkilatın əsas məqsədlərindən birinin xalqlar arasında sülhü yaymaq olduğunu vurğulayıb.

Təşkilatın digər nümayəndələri də çıxışlarında Azərbaycanın dünyaya örnək sayılacaq multikultural dəyərlərə, tolerantlıq mühitinə malik olduğunu vurğulayıblar, eyni zamanda Azərbaycanla təcrübə mübadiləsinin aparılmasında maraqlı olduqlarını diqqətə çatdırıblar.

# Azərbaycanda konfessiyalararası dözümlülük, tolerantlıq və multikultural dəyərlərin təşviqi bir nümunədir

## *Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin "Amerikanın Səsi"nə müsahibəsi*

**- Son zamanlar məlumatların intensivliyi Azərbaycanda terrora cəhd və bu istiqamətdə silahlanma meyllərinin artmasından xəbər verir. Sizcə, bunun səbəbi nədir və qarşısını almaq üçün hansı addımlar atılmalıdır?**

- Hesab edirəm ki, Azərbaycan ictimai-siyasi sabitlik baxımından dünyada öndə gedən ölkələrdən biridir. Prezidentimizin də dəfələrlə qeyd etdiyi kimi, Azərbaycan sabitlik adasıdır. Amma təbii ki, Azərbaycanda da bəzi cinayət hadisələri baş verir. Bu və ya digər formada terrorla bağlı qruplar aşkara çıxarılır. Həmin qrupların aşkara çıxarılmasında hüquq-mühafizə orqanları fəal rol oynayır. Bu cür qrupların yaranması da təsadüfi deyil. Çünki Azərbaycan elə bir coğrafi məkanda yerləşir ki, müxtəlif ekstremist və radikal qrupların bir növ bu ərazidə hansısa bir formada məskunlaşmaq, burada kök atmaq cəhdlərini biz həmişə müşahidə etmişik. Biz bilirik ki, ətrafımızda ekstremist, radikal qruplar mövcuddur. Həmin qrupların uzantıları buraya da gəlib çıxa bilir. Bu cür uzantıların fəsadları ortada olduqda onları aradan qaldırmaq üçün lazımi tədbirlər görülür. Son vaxtlarda Dövlət Təhlükəsizliyi Xidməti bu istiqamətdə ardıcıl işlər görməklə həmin qrupları tam şəkildə zərərsizləşdirib və bunların genişlənməsi imkanı çox məhduddur.

**- Rəsmi şəxslərin dediyinə görə, bir neçə yüz Azərbaycan vətəndaşı terror və radikal dini təşkilatların tərkibində döyüşüb və ya döyüşür. Azərbaycan vətəndaşlarının bu təşkilatlara qoşulması üçün hansı qabaqlayıcı tədbirlər görülür? Hazırda tendensiya necədir?**

- Rəsmi məlumatlara görə, doqquz yüzə qədər azərbaycanlı qeyri-qanuni silahlı birləşmələrdə iştirak etmək üçün ölkədən gedib. Bunlar həm Suriya ərazisində, həm İraq ərazisində olan qruplaşmaların tərkibində olublar. Həmin rəsmi statistikaya görə, bunların bir qismi orada həlak olub, bəziləri peşmançılıq çəkərək geriyə dönüb və həmin gələnlər içərisində həbs olunanlar da var, məhkəmənin hökmü ilə cəzaya məruz qalanlar da. Amma bu 900 nəfərin içərisində - yaddan çıxarmayaq ki, bəziləri öz ailələrini də aparıb - bu rəqəmlə 900 alınır. Son dövrlərdə qeyri-qanuni silahlı birləşmələrə gedənlər müşahidə edilməyib. Son il yarımda bizdə bir dənə də belə fakt aşkar edilməyib. Həm hüquq-mühafizə orqanlarının, həm də Dövlət Komitəsinin digər qurumlarla birgə apardığı profilaktik tədbirlər, eyni zamanda Suriya və İraqda hərbi əməliyyatların kəskinləşməsi, orada İŞİD əleyhinə aparılan əməliyyatlarda əldə edilmiş uğurlar buradan gedənləri çəkindirib. Çəkindirici amillərin ideoloji, siyasi, iqtisadi, hərbi, psixoloji tərəfləri var. Azərbaycandan demək olar ki, son dövrlərdə həmin ərazilərə gedənlər olmayıb. Profilaktik tədbirlər davam etdirilir.

**- Azərbaycanda bu il İslam Oyunları keçiriləcək və ölkədə "İslam Həmrəyliyi İli" elan edilib. Bu Oyunlar və "İslam Həmrəyliyi İli" çərçivəsində keçiriləcək tədbirlər dünyada İslam Həmrəyliyinə hansı töhfələr verə bilər?**

- Prezidentimiz cənab İlham Əliyevin 2017-ci ili "İslam Həmrəyliyi İli" elan etməsinin çox böyük ictimai-siyasi əhəmiyyəti var. "İslam Həmrəyliyi İli"nin elan edilməsi İslam Oyunlarının Azərbaycanda keçirilməsi ilə uzlaşan bir hadisədir. İslam Oyunları da yalnız oyunlar kimi başa düşülməli deyil. İslam Oyunları, eyni zamanda müsəlman dünyasını bir araya gətirən, birləşdirən, humanitar, siyasi, iqtisadi əlaqələrə təkan verən bir hadisədir. IV İslam Oyunlarının Azərbaycanda keçirilməsi Azərbaycan üçün çox böyük əhəmiyyət kəsb edən hadisədir. İslam həmrəyliyinə gəldikdə isə, İslamda həmrəyliyə böyük ehtiyac var. İslamda həmrəylik həm iqtisadi, beynəlxalq təşkilatlarda, siyasi sahədə, islamofobiyaya qarşı mübarizədə, radikal qruplara qarşı mübarizədə həmrəyliyi zəruri edib. Həmin zərurəti nəzərə alaraq, Prezidentimiz bu ili "İslam Həmrəyliyi İli" elan edib. İslam həmrəyliyinə uyğun olaraq, Azərbaycanın nümunələri var. İslam həmrəyliyi ölkədə müxtəlif məzhəblərin həmrəyliyində, eyni zamanda ölkədə İslamla digər konfessiyaların birgəyaşayışının nümunələrində özünü göstərməlidir. Bununla bağlı Tədbirlər Planı qəbul edilib. Həmin Tədbirlər Planı həm ölkə daxilində, həm ölkənin xaricində tədbirləri əhatə edir. Azərbaycanın İslam həmrəyliyinə töhfəsi baxımından Azərbaycanda konfessiyalararası dözümlülük, tolerantlıq, multikultural dəyərlərin təşviqi, eyni zamanda müxtəlif məzhəblərin bir araya gələrək vəhdət namazı formasında məscidlərdə keçirdiyi tədbirlər bir nümunədir, örnək kimi göstəriləcəkdir. Bu özü bir töhfədir. Azərbaycan Prezidentinin bu qərarı İslam dünyasında böyük əks-səda doğurmaqla ciddi şəkildə müdafiə olunur.

**- Prezident Həsən Ruhani bildirib ki, Azərbaycan və İran vəhabi-sələfi ideologiyasından qaynaqlanan terror çağırışlarının kökünün kəsilməsi üçün birgə səylər göstərəcək. Bu istiqamətdə hansı birgə fəaliyyətlər mövcuddur?**

- Azərbaycan dini radikal və ekstremist qruplara qarşı dünyanın bütün ölkələri, xüsusilə İslam dünyası ilə çox ciddi əməkdaşlıq edir. Bizim həm xüsusi xidmət orqanları, hüquq-mühafizə orqanları,



həm dövlət qurumları, eyni zamanda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi bu sahədə ikitərəfli və çoxtərəfli əlaqələrdə iştirak edir. Burada Qafqaz Müsəlmanları İdarəsi də öz töhfəsini verir. Bu istiqamətdə keçirilən beynəlxalq tədbirlərdə yaxından iştirak edir. İran İslam Respublikası ilə də bizim bu sahədə ikitərəfli əlaqələrimiz mövcuddur. Mən iki dəfə İranda səfərdə olmuşam. Bu yaxınlarda İranın Məşhəd şəhərinin İslam Mədəniyyət Mərkəzinin açılışında iştirak etdim. Orada apardığımız danışıqlarda biz bütövlükdə dini radikal qruplara qarşı birgə mübarizədə bir-birinə dəstək vermək, birgə tədbirlər keçirmək barədə razılaşma əldə etdik. Dini radikal qruplar, onların yaranma səbəbləri ciddi şəkildə araşdırılır, bununla bağlı çoxsaylı kitablar nəşr olunur, filmlər çəkilir. Dövlət Komitəsi "Fitnə" adlı sənədli film çəkib nümayiş etdirib. "Şəhadət" adlı film üzərində iş gedir, "Vəhdət" adlı sənədli film üzərində də iş aparılmaqdadır. Bütün bunlar, eyni zamanda Azərbaycanda və Azərbaycandan kənarda təbliğ ediləcək. İranla Azərbaycan, Türkiyə ilə Azərbaycan, ərəb ölkələri ilə Azərbaycan arasında dini radikal qruplara qarşı birgə mübarizə ilə bağlı tədbirlər planı var.

# Azərbaycan İslamın əsl mahiyyətini öz təqdimatında bütün dünyaya çatdırmağa çalışır

Azərbaycan hər zaman İslam həmrəyliyi prinsipindən çıxış edib. Bu il ölkəmizdə IV İslam Həmrəyliyi Oyunlarının keçirilməsi və 2018-ci ildə Naxçıvanın İslam mədəniyyətinin paytaxtı elan edilməsi Azərbaycanın müsəlman dünyasında nümunəvi ölkə olduğunu bir daha göstərir.

Bu fikirlər martın 17-də Şabranda keçirilən "İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə" mövzusunda regional konfransda səsləndirilib.

Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Şabran Rayon İcra Hakimiyyətinin (RİH) birgə təşkilatçılığı ilə Mədəniyyət Sarayında təşkil olunan tədbirdə Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi, yerli hüquq-mühafizə orqanlarının rəhbərləri, YAP rayon təşkilatının fəalları, dini icma sədrləri, din xadimləri, ilahiyyatçılar, həmçinin ictimaiyyət nümayəndələri iştirak ediblər.



Tədbir Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Fitnə" filminin nümayişi ilə başlayıb.

Filmdən sonra Şabran RİH-in başçısı Novruz Novruzov çıxış edərək bildirib ki, ötən il "Multikulturalizm ili" çərçivəsində ölkəmizin digər rayonlarında olduğu kimi, Şabranda da xeyli sayda tədbirlər, görüşlər keçirilib. Natiq vurğulayıb ki, bu ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunması da ötənilki ilin məntiqi davamıdır.

DQİDK-nın sədri Mübariz Qurbanlı qeyd edib ki, Azərbaycan Prezidenti İlham Əliyevin 2017-ci ilin respublikamızda "İslam Həmrəyliyi İli" elan edilməsi ilə bağlı Sərəncamına əsasən, İslam dininin maddi və qeyri-maddi irsimizin formalaşmasında rolunun, dünyada həmrəyliyin təmin olunmasında əhəmiyyətinin, ölkəmizin birgəyaşayış siyasətinin daha dərindən mənimsənilməsi məqsədilə Dövlət Komitəsi müxtəlif tədbirlər və regional konfranslar təşkil edir.

Bildirilib ki, bu kimi tədbirlər dini radikalizmlə mübarizənin, dindarlar, xüsusilə gənclər arasında Azərbaycanda mövcud olan dini tolerantlığın, multikulturalizm ənənələrinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması və təşviqi baxımından olduqca vacibdir. O, 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsinin ölkəmizin dövlət səviyyəsində dinə olan müsbət münasibətinin təzahürü və İslam dünyasının birliyinə verdiyi böyük önəmin göstəricisi olduğunu qeyd edib.

Konfransda ölkəmizdəki sabit dini vəziyyətdən danışılaraq bildirilib ki, Azərbaycan bir çox millətlərin və dini konfessiyaların dinc yanaşı yaşamasının nadir nümunəsidir. Diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev mütəmadi olaraq dini icmaların liderləri ilə görüşür, onların ehtiyac və problemləri ilə maraqlanır. Dövlətin bu sahədə yürütdüyü siyasət nəticəsində Azərbaycan cəmiyyətində dinlərarası münasibətdə dözümlülük özünü ən yüksək səviyyədə göstərir.

Konfransda qeyd olunub ki, ölkəmizdə elan olunan "İslam Həmrəyliyi İli"nin təkcə Azərbaycan və İslam dünyası üçün deyil, bütövlükdə, bəşəriyyət üçün böyük önəmi var. Azərbaycan öz təqdimatında İslamın əsl mahiyyətini bütün dünyaya çatdırmağa çalışır.

# Uşaq və gənclərin milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunması istiqamətində tədbir keçirilib

Martın 6-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) birgə təşkilatçılığı ilə dini maarifləndirmə mövzusunda tədbir keçirilib.

Tədbirin keçirilməsində əsas məqsəd dini bilgilərin artırılması, uşaq və gənclərin milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması istiqamətində görülən işlərin təmin edilməsindən ibarətdir.



Tədbirdə DQİDK-nın sədri Mübariz Qurbanlı, BŞTİ-nin müdiri Məhəbbət Vəliyeva, hər iki qurumun əməkdaşları və paytaxtın məktəb direktorları iştirak ediblər.

Öncə Dövlət Komitəsinin sifarişi ilə çəkilmiş "Fitnə" filmi nümayiş olunub.

Tədbirdə çıxış edən BŞTİ-nin müdiri Məhəbbət Vəliyeva Təhsil Nazirliyi və DQİDK tərəfindən birgə imzalanmış "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" Fəaliyyət Planına uyğun olaraq, paytaxt məktəblərində müvafiq tədbirlərin keçirildiyini bildirib. İdarə müdiri gənclər arasında milli-mənəvi və ümumbəşəri dəyərlərin təbliğinin əhəmiyyətinə toxunaraq hər bir gəncin vətənpərvərlik ruhunda formalaşmasının vacibliyini vurğulayıb.

Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı öz çıxışında gənclərin dini radikalizm və ekstremizmin zərərli təsirlərindən qorunması istiqamətində aparılan maarifləndirmə işlərindən danışıb. O qeyd edib ki, ümumtəhsil müəssisələrində dini bilgilərin artırılması ilə bağlı yaxından əməkdaşlıq etməkdə maraqlıdırlar. Gənc nəslin, eləcə də uşaqların milli-mənəvi dəyərlər ruhunda tərbiyə olunmasında təhsil müəssisələrinin rolunu vurğulayaraq, bu istiqamətdə ardıcıl işlərin həyata keçirilməsindən danışıb. Bildirib ki, Təhsil Nazirliyi ilə Dövlət Komitəsi tərəfindən birgə təsdiq olunmuş Fəaliyyət Planında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi uşaqların və gənclərin mənəvi tərbiyəsində əhəmiyyətli rol oynayacaq.

Qeyd edək ki, Təhsil Nazirliyi və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin birgə fəaliyyəti əsasında ümumtəhsil məktəblərinin tərbiyə işləri üzrə direktor müavinləri, psixoloqlar, Uşaq Birliyi Təşkilatı rəhbərləri, kitabxanaçılar üçün milli-mənəvi və ümumbəşəri dəyərlərin izahı, təbliği və tədris prosesi ilə əlaqələndirilməsi məsələlərini əhatə edən tövsiyə xarakterli mühazirələr keçirilir. Eləcə də VIII-XI sinif şagirdlərinin, həmçinin məktəbdənkənar təhsil müəssisələrinin dərnək üzvlərinin iştirakı ilə "Milli-mənəvi dəyərlərimizi qoruyaq və təbliğ edək", "Mənəviyyatlı şəxs kimdir?", "Milli bayramlarımızın nümunəsində xalqımızın milli-mənəvi dəyərlərinin yaşadılması", "Vətənpərvərlik ən mühüm mənəvi dəyərdir" mövzularında rəy sorğuları, seminar və diskussiyalar, "İslam Həmrəyliyi İli" ilə əlaqədar səyyar mühazirələr təşkil edilir.

# Dini təhsil müəssisələrinə şəhadətnamələr təqdim edilib



Martın 7-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) tərəfindən dövlət qeydiyyatına alınmış yeddi dini təhsil müəssisəsinə şəhadətnamələr təqdim edilib.

Tədbirdə Dövlət Komitəsi və Qafqaz Müsəlmanları İdarəsinin rəsmiləri, dini təhsil müəssisələrinin rəhbərləri iştirak ediblər.

DQİDK-nın sədri Mübariz Qurbanlı Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycanda dövlət-din münasibətlərinin formalaşmasında həyata keçirdiyi din siyasəti barədə danışıb. Ümummilli Liderimizin hakimiyyətə yenidən qayıdışından sonra ölkədə dini fəaliyyət sahəsində sabitliyə nail olunması, konfessiyalar arasında dözümlülük mühitinin qorunub saxlanılması və möhkəmləndirilməsi istiqamətində böyük işlər görüldüyünü, dini etiqad azadlığına geniş imkanlar açıldığını və nəticədə dini icmaların normal fəaliyyəti üçün hüquqi-mənəvi şərait yaradıldığını diqqətə çatdırıb.

O, Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən dövlət-din münasibətləri sayəsində bu gün Azərbaycanın tolerantlığı, multikultural ənənələrə sadiqliyi ilə bütün dünyaya örnək göstərilən ölkələrdən biri olduğunu vurğulayıb. Komitə sədri qeyd edib ki, Azərbaycanda dini ayinləri yalnız ölkə daxilində dini təhsil almış şəxslər apara bilər. Buna görə də ölkəmizdə dini təhsil, din sahəsində kadrların hazırlanması ilə bağlı işlər görülür. Mübariz Qurbanlı bu məsələdə dini tədris müəssisələrinin önəmli rol oynayacağına ümidvar olduğunu bildirib.

Sonra dövlət qeydiyyatına alınmış Zaqatala İslam Kolleci, Gəncə İslam Kolleci, Lənkəran İslam Kolleci, Quba İslam Kolleci, Heydər İslam Kolleci, Nardaran İslam Kolleci və Bibiheybət İslam Kollecinin rəhbərlərinə şəhadətnamələr təqdim olunub.

⇨ 6

# Dini təhsil müəssisələrinə şəhadətnamələr təqdim edilib

⇦5 Martın 16-da isə daha 3 dini təhsil müəssisəsinə şəhadətnamələr təqdim edilib.

DQİDK-nın sədri Mübariz Qurbanlı ölkəmizdə uğurla formalaşdırılan dövlət-din münasibətləri barədə danışıb. O bildirib ki, dövlətimizin başçısının sərəncamları, tapşırıq və tövsiyələri ilə ölkəmizdə onlarla məscid tikilib, təmir və bərpa olunub, ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərilir və bu, dini zəmində münaqişələr girdabında boğulan müasir dünyamızda nadir nümunədir. Azərbaycanda müxtəlif məzhəblərə mənsub insanların məscidlərdə birgə ibadət etmələri təmin olunur. İslam dini üzrə gənc, peşəkar dini və dünyəvi biliklərə malik ixtisaslı kadrların hazırlanması diqqət mərkəzində saxlanılır.

Komitə sədri İslam dünyasının bir parçası kimi Azərbaycanda milli-mənəvi dəyərlərin və xalqımıza məxsus xüsusiyyətlərin qorunub-saxlandığını diqqətə çatdırıb. Xalqımızın tarixdən gələn bu ənənələrin gələcək nəsillər tərəfindən də davam etdirilməsinin vacibliyini vurğulayıb.

Bu ənənələrin davam etdirilməsində dini təhsilin böyük önəm daşıdığını bildirən Mübariz Qurbanlı ölkəmizdə milli dini kadrların hazırlanması istiqamətində Qafqaz Müsəlmanları İdarəsi ilə birlikdə işlər görüldüyünü deyib. Dini təhsil müəssisələrində tariximiz, milli kökümüz, məzhəblərarası tolerant münasibətlər, multikultural, islami dəyərlərimiz sistemli şəkildə tələbələrə çatdırılacaq.



Sonra dövlət qeydiyyatına alınmış Şəbnəm (qızlar) İslam, Şəki (hafizlik) İslam və Əliabad İslam Kollecinin rəhbərlərinə şəhadətnamələr təqdim olunub.

Qeydiyyat şəhadətnamələri almış dini tədris müəssisələrinin rəhbərləri dinə, dindarlara diqqət və qayğısına görə Prezident İlham Əliyevə dərin minnətdarlıqlarını bildiriblər. Qeyd ediblər ki, rəhbərlik etdikləri dini təhsil müəssisələri gələcək fəaliyyətlərində dövlətçilik prinsipini əsas tutacaq və xalqımızın milli-mənəvi dəyərlərinə yad olan dini ideologiyaların ölkəmizə ayaq açmasının qarşısının alınmasında daha fəal iştirak edəcəklər.

## DÖVLƏT KOMİTƏSİNDƏ “SALAAM ŞALOM QARDAŞLIĞI” TƏŞKİLATININ ÜZVLƏRİ İLƏ GÖRÜŞ KEÇİRİLİB



Martın 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) ABŞ-ın müxtəlif ştatlarında çoxsaylı tədbirlər təşkil edən, antisemitizmə və islamofobiyaya qarşı mübarizə aparan yəhudi və müsəlman qadınlardan ibarət “Salaam Şalom Qardaşlığı” təşkilatının üzvləri ilə görüş keçirilib.

DQİDK-nın sədri Mübariz Qurbanlı qonaqlara Azərbaycandakı multikultural və tolerant mühit barədə məlumat verib. Bildirib ki, ölkəmizin müxtəlif bölgələrində yaşayan xalqların, milli azlıqların adət-ənənələrinə hər zaman hörmətlə yanaşılır və onların rahat yaşamaları, dini ayinlərini sərbəst icra etmələri üçün hər cür şərait yaradılıb. O, Azərbaycanda heç vaxt milli və dini zəmində ayrı-seçkilik, qarşıdurma hallarına rast gəlinmədiyini, qarşılıqlı etimada, hörmətə əsaslanan mütərəqqi milli-mədəni, dini münasibətlərin mövcud olduğunu qeyd edib. Əlavə edib ki, əhalisinin əksəriyyəti müsəlman olan Azərbaycanda bütün dinlərin nümayəndələrinin hüquqları bərabər şəkildə qorunur, dini bərabərlik konstitusional səviyyədə təmin olunur.

Görüşdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinə toxunan M.Qurbanlı diqqətə çatdırıb ki, bu münaqişə dini, milli zəmində baş verməyib. Münaqişənin səbəbi Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları irəli sürməsidir.

Sonra təşkilat üzvlərinin sualları cavablandırılıb.

## Daha 12 dini icmaya maliyyə yardımı ayırılıb

Martın 10-da Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində (DQİDK) maliyyə yardımı ayrılmış 12 dini icma sədrinin iştirakı ilə tədbir keçirilib. Tədbirdə Dövlət Komitəsi sədrinin birinci müavini, Aparat rəhbəri, şöbə müdirləri və dini icmaların rəhbərləri iştirak ediblər.

Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bildirib ki, Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu və bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət-din münasibətləri sağlam prinsiplər üzərində qurulub. Ölkə başçısı son dövrlərdə milli-mənəvi dəyərlərin dirçəldilməsinə, o cümlədən yeni dini məbədlərin inşasına, mövcud olanların isə əsaslı təmirinə və yenidən qurulmasına xüsusi diqqət ayırır. Dövlət başçısının sərəncamları ilə tarixi dini abidələr, ziyarətgahlar bərpa edilir, dini-mənəvi dəyərlərə verilən yüksək qiymətin göstəricisi olaraq silsilə tədbirlər həyata keçirilir.

Azərbaycan Respublikasında 2017-ci ilin “İslam Həmrəyliyi İli” elan edilməsi haqqında imzaladığı Sərəncamın vacibliyinə toxunan Səyyad Salahlı maliyyə yardımı ayrılmış layihələrin İslam həmrəyliyinə həsr olunduğunu bildirib. Komitə sədrinin birinci müavini, eyni zamanda İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri barədə tövsiyələrini də verib.

Maliyyə yardımı almış dini icmaların sədrləri tədbirdə çıxış edərək dini sahəyə göstərdiyi diqqət və qayğıya, həmçinin dini icmalara ayrılan vəsaitə görə dövlət başçısı İlham Əliyevə dindarlar adından təşəkkürlərini bildiriblər.

Qeyd edək ki, Prezident İlham Əliyevin 27 noyabr 2014-cü ildə imzaladığı Sərəncama uyğun olaraq, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən 180 dini icmaya maliyyə yardımı ayrılıb ki, bunlardan 19-u qeyri-islam, 161-i isə İslam dini icmasıdır. Dini icmalar ayrılmış vəsait hesabına dini maarifləndirmə və milli-mənəvi dəyərlərimizin təbliği istiqamətində yerlərdə tədbirlər keçirməkdə davam edirlər.



## “Tolerantlığın Azərbaycan nümunəsi dünyanın qəbul etdiyi və örnək göstərdiyi modelə çevrilib”



“Prezident İlham Əliyev sivilizasiyalar, dinlər arasında faydalı əməkdaşlığın, qarşılıqlı etimadın yaradılması üçün mühüm fəaliyyət göstərir”.

Bu fikirləri Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı deyib.

S.Salahlı bildirib ki, bu sahədəki məqsədyönlü, düşünülmüş siyasətin nəticəsidir ki, tolerantlığın Azərbaycan nümunəsi dünyanın qəbul etdiyi və örnək göstərdiyi modelə çevrilib. Onun sözlərinə görə, hazırda islami dəyərlərin geniş təbliğinə böyük ehtiyac var və bu yöndə maarifləndirmə işləri daim gündəmdədir: “Ümummilli Lider Heydər Əliyevin uzaqgörənliklə əsasını qoyduğu və bu gün Prezident İlham Əliyevin uğurla davam etdirdiyi dövlət-din münasibətləri sağlam prinsiplər üzərində qurulub. Ölkəmizdə ənənə halını almış tolerantlıq və multikultural mühit dünyada ən müasir və mütərəqqi cəmiyyət modeli kimi qəbul edilib. Ölkəmizdə 2017-ci ilin “İslam Həmrəyliyi İli” elan olunması İslam dünyasına, eləcə də müxtəlif sivilizasiyaların həmrəyliyinə öz töhfəsini verəcək”.

# Berndə "Multikulturalizm və mədəniyyətlərarası dialoq: İsveçrə və Azərbaycan modelləri" mövzusunda konfrans keçirilib

Bern şəhərindəki İsveçrə Dinlər Evində Azərbaycanın İsveçrədəki səfirliyinin təşəbbüsü və "Dinlər Evi - Mədəniyyətlərin Dialoqu" qurumunun birgə təşkilatçılığı ilə "Multikulturalizm və mədəniyyətlərarası dialoq: İsveçrə və Azərbaycan modelləri" mövzusunda konfrans keçirilib. Konfransda Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlının rəhbərlik etdiyi nümayəndə heyəti iştirak edib.

Tədbiri açan səfir Əkrəm Zeynallı qonaqlara Azərbaycanda multikulturalizm və dinlərarası dialoq mühiti barəsində ümumi məlumat verib və bu tədbirin ərsəyə gəlməsində göstərdiyi dəstəyə görə İsveçrənin "Dinlər Evi – Mədəniyyətlərin Dialoqu" təşkilatına və Azərbaycanın müxtəlif qurumlarını təmsil edən nümayəndə heyətinin üzvlərinə təşəkkürünü bildirib. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə 2016-cı ilin ölkəmizdə "Multikulturalizm İli", 2017-ci ilin isə "İslam Həmrəyliyi İli" kimi qeyd olunduğunu deyən səfir Azərbaycanın əsrlər boyu müxtəlif dinlərin və mədəniyyətlərin qovuşduğu bir məkan olduğunu və milli-mədəni rəngarənglik mühitinin formalaşdığını vurğulayıb

Qonaqlara Azərbaycan dövlətinin müxtəlif dini icmalara münasibətdə həyata keçirdiyi siyasət barədə ətraflı məlumat verən Dövlət Komitəsi sədrinin birinci müavini Səyyad Salahlı bu istiqamətdə tarixən formalaşmış milli-mənəvi dəyərlərdən söz açıb, müxtəlif dini icmaların birgəyaşayış nümunəsindən danışıb.

Daha sonra çıxış edən "Dinlər Evi - Mədəniyyətlərin Dialoqu" təşkilatının rəhbəri Qerda Hauk İsveçrədə multikulturalizm və dinlərarası münasibətlərə nəzər salıb, bu istiqamətdə mövcud olan qanunvericilik aktlarını qeyd edərək, bir sıra çatışmazlıqların olduğunu vurğulayıb. O, İsveçrədə dövlət-din münasibətlərinin tənzimlənməsində kantonların və Konfederasiyanın özünəməxsus rol oynadığını qeyd edərək, bəzi kantonlarda bir sıra fərqliliklərin olduğunu bildirib.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin analitik şöbəsinin müdiri Rəşad İlyasov çıxışında Mərkəzin yarandığı tarixdən etibarən gördüyü işlərdən və uğurlu təcrübələrindən, o cümlədən İsveçrənin Friburq Universitetinin timsalında dünyanın 15 ölkəsində "Azərbaycan multikulturalizmi" mövzusunda dərslərin keçirilməsindən danışıb.

Bakı şəhəri Dağ yəhudiləri dini icmasının rəhbəri Milix Yevdayev Azərbaycanda yəhudi icmasının tarixən formalaşması və hazırkı həyat tərzindən, dövlət tərəfindən onlara yaradılmış şəraitdən bəhs edib.

Daha sonra Qafqaz Müsəlmanları İdarəsinin aparat rəhbəri Simran Həsənov çıxış edərək əhalisinin 95 faizini müsəlmanların təşkil etdiyi Azərbaycanda müxtəlif dini konfessiyaların üzvləri arasında formalaşan qarşılıqlı hörmət və birgəyaşayış modelinin qorunması istiqamətində müsəlman icmasının fəaliyyətindən danışıb.

Sonda Bolqarıstanın İsveçrədəki səfiri




Meqlena Pluqçiyeva-Aleksandrova tədbirdə çıxış edən natiqlərin Azərbaycandakı tolerantlıq mühiti barədə söylədikləri fikirlərin tam həqiqəti əks etdirdiyini, bunun şəxsən şahidi olduğunu qeyd edib. O, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın multikulturalizm və dinlərarası dialoq məsələlərinə xüsusi diqqət yetirdiyini, hətta ölkə xaricində bir sıra geniş layihələrin həyata keçirilməsində yaxından iştirak etdiyini vurğulayıb. Səfir Bolqarıstanın Veliko Tırnovo şəhərində Heydər Əliyev Fondunun dəstəyi ilə "Trapezitsa" Memarlıq Muzeyi Qoruğunun bərpa olunduğunu xüsusilə qeyd edərək, bu addımın bolqar xalqı tərəfindən yüksək qiymətləndirildiyini və buna görə də Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təşəkkürünü bildirib.

Konfransda, həmçinin "Azərbaycan - tolerantlıq məkanı" adlı sənədli film nümayiş etdirilib. Film iştirakçılar tərəfindən rəğbətlə qarşılanıb.

İsveçrədə fəaliyyət göstərən müxtəlif dini icmaların nümayəndələrinin, diplomatik korpusun üzvlərinin, jurnalistlərin və tədqiqatçıların iştirak etdikləri tədbirin sonunda suallar ətrafında geniş müzakirələr aparılıb.

Konfransın ardınca "Azərbaycanda dövlət-din münasibətlərinin xüsusiyyətləri" mövzusunda sərgi təşkil olunub. Həmçinin iştirakçılara milli mətbəximizin nümunələrindən ibarət ziyafət verilib.

# "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri" mövzusunda seminar-müşavirə təşkil olunub

Martın 13-də Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri" mövzusunda seminar-müşavirə keçirilib.

Tədbirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) sədrinin birinci müavini Səyyad Salahlı, Lənkəran Şəhər İcra Hakimiyyəti (ŞİH) başçısının birinci müavini İlqar Dadaşov, DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsinin müdiri Qağayı Məmmədov, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Lənkəran bölgəsi üzrə səlahiyyətli nümayəndəsi Qəni Axundzadə, dini icma sədrləri, din xadimləri, rayon ziyalıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Lənkəran ŞİH başçısının birinci müavini İlqar Dadaşov əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətlərinin sağlam təməllər üzərində qurulduğunu, multikulturalizmin dövlət siyasətinə çevrildiyini bildirib. İlqar Dadaşov qeyd edib ki, bu ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunması İslam dünyasında həmrəyliyə, birliyə öz töhfəsini verəcəkdir.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı öz çıxışında Azərbaycanda bütün dinlərə bərabər münasibət göstərildiyini vurğulayaraq ölkəmizdəki multikultural və tolerant mühitin bütün dünyada müasir və mütərəqqi model kimi qəbul edildiyini diqqətə çatdırıb. Tarix boyu müxtəlif qüvvələrin müsəlman dünyasının birliyinə mane olmağa çalışdığını bildirən S.Salahlı hər bir müsəlmanın təəssübkeşlikdən qaçmalı olduğunu və müsəlman dünyasının vəhdətini qüvvətləndirmək üçün inamlı addımlar atmalı olduğunu vurğulayıb. Bu məqsədlə cənab Prezident İlham Əliyev tərəfindən 2017-ci ilin "İslam





Həmrəyliyi İli" elan olunmasının müasir dövrün çağırışlarını özündə ehtiva etdiyini və ölkəmizin tarixi missiyanı həyata keçirdiyini bildirib.

* * *

Martın 14-də isə Masallı şəhərindəki Heydər Əliyev Mərkəzində "İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri" mövzusunda seminar-müşavirə keçirilib.

Tədbirdə DQİDK sədrinin birinci müavini Səyyad Salahlı, Masallı Rayon İcra Hakimiyyəti (RİH) başçısı Aparatının İctimai-siyasi və humanitar məsələlər üzrə şöbəsinin müdir müavini-dini qurumlarla işin təşkilatçısı Nazim Muradov, DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin əməkdaşları, Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) bölgə qazısı Mirqiyas Təhməzov, dini icma sədrləri, din xadimləri, rayon ziyalıları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Müşavirəni DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsinin baş məsləhətçisi Kamil Bağırov açaraq qeyd edib ki, ölkə rəhbəri cənab İlham Əliyevin bu ili "İslam Həmrəyliyi İli" elan etməsi beynəlxalq arenada sivilizasiyalar arasında həmrəyliyə müsbət təsir göstərəcəkdir.

DQİDK sədrinin birinci müavini Səyyad Salahlı da sözügedən Sərəncamın vacibliyinə toxunaraq İslam həmrəyliyinin təbliğində dini icmaların fəaliyyətinin başlıca istiqamətləri barədə öz tövsiyələrini verib. S.Salahlı respublikamızda dövlət-din münasibətlərinin daha yüksək səviyyədə tənzimlənməsi, dini maarifləndirmə işinin təşkili və həyata keçirilməsi, həmçinin dini icmaların cəmiyyətdə radikalizm meyllərinin qarşısının alınması və sosial problemlərinin həlli prosesinə cəlb olunması sahəsində dövlətin həyata keçirdiyi tədbirləri din xadimlərinin nəzərinə çatdırıb.

Tədbirlərin sonunda mövzu ətrafında müzakirələr aparılıb, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# Bakıda "Terrorçuluğa, ekstremizmə və radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda konfrans keçirilib

Martın 3-də Bakıda Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX), Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin, Prezident yanında Gənclər Fondunun, Təhsil Nazirliyinin, Gənclər və İdman Nazirliyinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) təşkilatçılığı ilə "Terrorçuluğa, ekstremizmə və radikalizmə qarşı mübarizədə gənclərin rolu" mövzusunda konfrans keçirilib.

Respublikamızda fəaliyyət göstərən gənclər təşkilatlarının, QHT-lərin təmsilçiləri, politoloqlar və ekspertlər, "ASAN xidmət" mərkəzlərinin əməkdaşları, ali və xüsusi təyinatlı təhsil müəssisələrinin tələbələri və kursantlarının iştirak etdiyi tədbirdə iştirakçılar əvvəlcə sərgi salonunda DTX-nın Mədəniyyət Mərkəzinin rəssamlıq dərnəyində fəaliyyət göstərən uşaqların və yeniyetmələrin "Biz terrora yox deyirik!" mövzusunda rəsm əsərlərindən ibarət sərgi ilə tanış olublar. Sərgidə DQİDK-nın radikalizmə qarşı müvafiq təbliğat vasitələri də nümayiş etdirilib. Sərgi salonunda həmçinin Prezident İlham Əliyevin Azərbaycan gəncliyinə diqqət və qayğısını əks etdirən film nümayiş olunub.

Konfrans Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Sonra Azərbaycan Respublikasının dövlət himni səsləndirilib.

Tədbirin moderatoru, Bakı Dövlət Universitetinin kriminalistika və məhkəmə ekspertizası kafedrasının müdiri, hüquq elmləri doktoru, professor Kamil Səlimov bildirib ki, konfransın məqsədi Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən fəal hüquq-mühafizə və təhlükəsizlik siyasətinin əsas istiqamətlərinə dair gənclərin məlumatlandırılması, şəxsiyyətin, cəmiyyətin və dövlətin təhlükəsizliyi əleyhinə yönəlmiş təhdidlərin, xüsusilə terrorçuluğun, ekstremizmin və radikalizmin mahiyyəti, yaranma şəraiti, gerçəkləşdirilmə üsulları və onlardan qorunma yolları barədə maarifləndirmənin təşkilidir. Həmçinin dövlət təhlükəsizliyinə mümkün təhdidlərin qarşısının alınmasında ən səmərəli vasitə olan vətənpərvərlik, dövlətçilik amallarının, milli-mənəvi irsin, adət-ənənələrin aşılanması, gənc nəslin dini dözümlülük və tolerantlıq mədəniyyətinin inkişaf etdirilməsi ruhunda tərbiyə olunması, eləcə də ölkə gənclərinin aparıcı nümayəndələri, müxtəlif dövlət və ictimai təşkilatların təmsilçiləri ilə terrorçuluq, ekstremizm və radikalizmə qarşı effektiv mübarizə mexanizmlərinin yaradılması istiqamətində birgə səyləri müzakirə etmək, ayrı-ayrı qurumların səylərinin birləşdirilməsi, fəaliyyətinin əlaqələndirilməsi də konfransın məqsədləri sırasındadır.




Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, general-leytenant Mədət Quliyev dünyanı təhdid edən terrorizm, ekstremizm və radikalizmlə mübarizənin Azərbaycan üçün də mühüm əhəmiyyət kəsb etdiyini bildirib. Qeyd edib ki, hazırda bölgədə, xüsusilə Yaxın Şərq ölkələrində, o cümlədən qardaş Türkiyədə cərəyan edən terrorçuluq, dini radikalizm, ekstremizm, separatçılıq və digər təhdidlər Azərbaycan üçün də ciddi təhlükə təşkil edir.

Mədət Quliyev təəssüf hissi ilə vurğulayıb ki, əksəriyyəti gənclər olan 900-dək Azərbaycan vətəndaşı Suriyada və İraqda fəaliyyət göstərən terrorçu təşkilatların sıralarına qoşulub. Onların çoxu döyüşlərdə öldürülüb. Son iki il ərzində 84 nəfər Azərbaycana qayıtdıqdan sonra cinayət məsuliyyətinə cəlb olunub. Terrorçu təşkilatların tərkibində döyüşdüklərinə görə son bir ildə 54 nəfər Azərbaycan Respublikası vətəndaşlığından xaric edilib.

Qeyd olunub ki, terrorçuluğa və hər cür qanunsuz fəaliyyətə qarşı mübarizə aparan Azərbaycanın bu mövqeyi ölkəmizin dünyada sülhün bərqərar edilməsinə, ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı prinsipinə tərəfdar olduğunu, beynəlxalq hüququn prinsiplərini rəhbər tutduğunu göstərir. Azərbaycan radikalizmə və terrorizmə qarşı mübarizədə ikitərəfli və çoxtərəfli proqramlarda fəal iştirak edir. Prezident, Ali Baş Komandan İlham Əliyevin apardığı məqsədyönlü və praqmatik siyasət nəticəsində Azərbaycan beynəlxalq təhlükəsizlik sistemində öz layiqli yerini tutub və xarici həmkarlarımız arasında etibarlı tərəfdaş nüfuzu qazanıb.

General-leytenant Mədət Quliyev qeyd edib ki, Ümummilli Lider Heydər Əliyev vətənpərvərlik hissinin yaradılması və inkişaf etdirilməsi, gənclərin vətənpərvər ruhda tərbiyəsini təkcə dövlət orqanlarının deyil, həm də ümumxalq işi kimi dəyərləndirirdi. Dahi şəxsiyyət dəfələrlə vurğulayırdı ki, xalqımızda, yetişən gənc nəsil arasında vətənpərvərlik, torpağa, millətə sədaqət, Vətəni sevmək və onun yolunda şəhidliyə hazır olmaq hisslərini tərbiyə etmək, formalaşdırmaq və inkişaf etdirmək ümumi vəzifədir.

DQİDK sədrinin müavini Səyavuş Heydərov "Dini ekstremizmin mahiyyəti, yaranma səbəbləri və yayılması metodologiyası" mövzusunda məruzəsində vurğulayıb ki, belə təşkilatlar geniş təbliğat işləri apararaq xüsusilə gəncləri öz sıralarına cəlb edir, onlardan öz niyyətlərinin həyata keçirilməsində istifadə edirlər. Radikalizm və ekstremizm sırf dini, dini-etnik və dini-siyasi formalarda təzahür edir. Azərbaycanda dinin siyasiləşdirilməsinə cəhd göstərmiş "Müsəlman hərəkatı birliyi" adlanan qruplaşmanın fəaliyyətində cəmiyyətin identifikasiyasının azərbaycançılıqdan ümmətçiliyə dəyişdirilməsi kimi dövlət və milli maraqlara zidd hərəkətlər müşahidə edilib.

Bildirilib ki, dini ekstremist cərəyanlar yeni üzvləri cəlb etmək üçün müxtəlif təsir mexanizmlərindən, o cümlədən sosial çətinliklərdən və psixoloji amillərdən istifadə edirlər. Azərbaycanda radikalizmin yayılması səbəblərindən biri də xaricdə dini təhsildir. Buna görə də gənclərin xaricdə təhsil almalarına, qeyri-qanuni dini ədəbiyyatın, o cümlədən xarici müəlliflərin kitablarından istifadəyə ciddi nəzarət olunmalıdır. Bu gün əhalinin dini maarifləndirilməsi istiqamətində dövlət səviyyəsində geniş maarifləndirmə işi aparılır.

Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini Vüqar Əliyev "Terror, ekstremizm və radikalizm ilə mübarizədə KİV-in rolu və vəzifələri", Təhsil nazirinin müavini Firudin Qurbanov "Təhsil - terrora, ekstremizmə və radikalizmə qarşı mübarizədə ən effektiv vasitə kimi", Gənclər və idman nazirinin müavini İntiqam Babayev "Dövlətin gənclər siyasəti. Terror, ekstremizm və radikalizm ilə mübarizə kontekstində", Milli Məclisin gənclər və idman komitəsinin sədri Fuad Muradov "Dövlətçiliyin qorunmasında gənclərin fəallaşdırılması üçün qanunvericilik təşəbbüsləri", QMİ-nin sədr müavini Fuad Nurullayev "Dinlərin terrora, ekstremizmə və radikalizmə qarşı mübarizədə rolu" mövzusunda və digərləri də məruzələrlə çıxış ediblər.

Məruzələrdən sonra konfrans iştirakçılarının, o cümlədən tələbələrin sualları cavablandırılıb.

Sonda konfrans iştirakçıları adından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə müraciət qəbul edilib.

# Qeyri-ənənəvi dini cərəyanlar və dini radikalizm bütün cəmiyyətlər üçün bəlaya çevrilib



Daxili İşlər və Ədliyyə nazirlikləri, Dövlət Təhlükəsizlik Xidməti nümayəndələrinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) yerli struktur rəhbərlərinin, Ağstafa, Qazax, Tovuz, Gədəbəy və Şəmkir rayon prokurorlarının iştirakı ilə Ağstafa Heydər Əliyev Mərkəzində müşavirə keçirilib.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsini ziyarət ediblər.

Müşavirədə DQİDK-nın təşəbbüsü ilə çəkilmiş "Fitnə" sənədli filmi nümayiş olunub.

Tədbiri açan Ağstafa Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyev bildirib ki, Ulu Öndərin əsasını qoyduğu dövlət-din münasibətləri modeli sayəsində respublikamızda vicdan azadlığı tam təmin edilib, məscid və kilsələrin fəaliyyətinə icazə verilib, ölkə Konstitusiyasında bütün dini etiqadların qanun qarşısında bərabər olduğu göstərilib. Ümummilli Liderin müəyyənləşdirdiyi siyasət bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.

Dövlət Komitəsi sədrinin müavini Səyavuş Heydərov "Dini ekstremizm və radikalizmin mahiyyəti, yaranma səbəbləri və onlara qarşı mübarizənin hüquqi əsasları" mövzusunda çıxış edib. O, bəzi qüvvələrin din pərdəsi altında ölkəmizin ictimai-siyasi sabitliyinə, dövlətimizin hüquqi-demokratik əsaslarına qarşı yönəlmiş pozuculuq cəhdlərini, vətəndaşlarımızı xaricdə fəaliyyət göstərən dini ekstremist qrupların və onların silahlı dəstələrinin tərkibinə qoşmaq istəklərini qətiyyətlə pisləyib. Bu cür əməllər törətməyə cəhd edənlərə qarşı dövlət qurumları tərəfindən aparılan mübarizə tədbirləri barədə geniş məlumat verib. Qeyd edib ki, dini ekstremizm və radikalizmə qarşı mübarizə təkcə dövlət qurumları tərəfindən deyil, bütövlükdə cəmiyyət tərəfindən aparılmalıdır.

Baş Prokurorluğun işçisi Alim Cəbrayılov və Daxili İşlər Nazirliyinin nümayəndəsi Oktay Tağıyev çıxışlarında ölkəmizdə dini ekstremizmə və radikalizmə qarşı aparılan mübarizə tədbirlərindən söz açıb. Müxtəlif dini cərəyanlar və onların fəaliyyət metodları haqqında ətraflı məlumat verilib.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

# “İslam ensiklopediyası”nın hazırlanması üçün dünya ölkələrinin təcrübəsi öyrənilir”

Azərbaycanda ilk dəfə olaraq uşaqlar və yeniyetmələr üçün “İslam ensiklopediyası”nın hazırlanması məqsədilə hazırda dünya ölkələrinin təcrübəsi öyrənilir. Bu barədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov məlumat verib.

Gündüz İsmayılov qeyd edib ki, daha sanballı ensiklopediyanın nəşri üçün həm İslam, həm Avropa ölkələrinin təcrübəsi araşdırılır. Ensiklopediyanın hazırlanması üçün Redaksiya Şurası yaradılıb və bu işə Azərbaycanın tanınmış ilahiyyatçıları, pedaqoqları cəlb olunacaq.

Dövlət Komitəsi sədrinin müavini bildirib ki, ensiklopediyanın hazırlanmasında əsas hədəf İslamla bağlı düzgün maarifləndirmə aparmaqdır. Çünki araşdırmalar göstərir ki, dini radikalların əsas hədəfi yeniyetmə və gənclər olur. Ona görə də bu yaş qrupunda olan insanlar arasında maarifləndirmə daha çox aparılmalıdır. Bu baxımdan Dövlət Komitəsi digər qurumlarla, xüsusilə Qafqaz Müsəlmanları İdarəsi ilə birgə gənclər təşkilatlarında, Silahlı Qüvvələrdə, cəzaçəkmə müəssisələrində, ali və orta təhsil müəssisələrində maarifləndirmə işini daha çox aparır.



# Mingəçevirdə “İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə” mövzusunda konfrans təşkil olunub



Mingəçevirdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK), Mingəçevir Şəhər İcra Hakimiyyətinin (ŞİH), Mingəçevir Dövlət Universitetinin təşkilatçılığı ilə “İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə” mövzusunda regional konfrans keçirilib.

Dini icma sədrləri, din xadimləri, imam və axundlar, gənc dindarlar, eləcə də universitetin müəllim və tələbələrinin iştirakı ilə baş tutan konfransda çıxış edən DQİDK-nın sədr müavini Gündüz İsmayılov bildirib ki, İslam dininin maddi və qeyri-maddi irsimizin formalaşmasındakı rolunun, dünyada həmrəyliyin təmin olunmasındakı əhəmiyyətinin, ölkəmizin birgəyaşayış siyasətinin daha dərindən mənimsənilməsi məqsədilə Dövlət Komitəsi regionlarda “İslam həmrəyliyi: müasir çağırışlar və dini maarifləndirmə” mövzusunda regional konfranslar keçirir. Bu tədbirlərin keçirilməsində əsas məqsəd dini radikalizmlə mübarizənin, dindarlar, xüsusilə gənclər arasında Azərbaycanda mövcud olan dini tolerantlığın, multikulturalizm ənənələrinin, milli-mənəvi dəyərlərin qorunub saxlanılması və təşviq olunmasıdır. O bildirib ki, 2017-ci ilin “İslam Həmrəyliyi İli” elan edilməsi ölkəmizin İslam dünyasının birliyinə verdiyi böyük önəmin göstəricisidir: “İndiyədək müsəlman ölkələrini din ətrafında birləşməyə çağıran müəyyən təşəbbüslər göstərilib. Lakin dövlətimizin başçısı İlham Əliyev tarixdə ilk dəfə olaraq, İslam dünyasına mesaj ünvanlayaraq, vahid mövqedən çıxış etməyin və birliyə nail olmağın, eyni zamanda, dünyaya inteqrasiyanın vacibliyinə işarə edib”.

Qeyd edilib ki, ölkəmizdə elan olunan “İslam Həmrəyliyi İli”nin təkcə Azərbaycan və İslam dünyası üçün deyil, bütövlükdə, bəşəriyyət üçün böyük önəmi var. Çünki dinlərarası qarşıdurma heç kəsə xoşbəxtlik gətirmir. “Günahsız insan ölümlərinə səbəb dünyada hökm sürən ziddiyyətlərdir. Yaxın Şərqdə baş verən hadisələr də bunu açıq şəkildə sübuta yetirir. İslamın əsl mahiyyətini Azərbaycan öz təqdimatında bütün dünyaya çatdırmağa cəhd göstərir. Təəssüflər olsun ki, bu gün maraqlı dairələr İslamı terroru dəstəkləyən din kimi qələmə verirlər. Halbuki İslamda dinc və günahsız insanın ölümü bəşəriyyətin ölümü kimi qiymətləndirilir”, - deyə Gündüz İsmayılov vurğulayıb.

Mingəçevir Dövlət Universitetinin rektoru Akif Hacıyev bildirib ki, Azərbaycan hər zaman İslam həmrəyliyi prinsipindən çıxış edib. İslam dini hər kəsi terrora, zülmə, əsarətə deyil, azadlığa və insan haqlarının qorunmasına, günahsız insanlara qarşı mərhəmətə dəvət edir.

Konfransda DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin aparıcı məsləhətçisi Əlisa Fərəcov “İslam həmrəyliyi: müasir çağırışlar”, Mingəçevir Dövlət Universitetinin müəllimi İlhamə İsmayılova “İslam ideologiyasının psixoloji aspektləri”, müəllim Üzeyir Zeynalov “Sivilizasiyaların inteqrativ münasibətləri və dialoqunda İslam dininin yeri və rolu”, Tələbə Gənclər Təşkilatının sədri Rəşad Qurbanov “Azərbaycanda gənc nəsil mütərəqqi İslam mədəniyyətinin daşıyıcısıdır” mövzusunda məruzə ediblər. Çıxışlarda bildirilib ki, dünyada artıq uzun illərdir ki, məqsədyönlü şəkildə islamofobiya hökm sürür, İslam ölkələrinin əleyhinə kampaniya aparılır. Ayrı-ayrı güclər müsəlman dövlətlərinin enerji resurslarına yiyələnmək üçün fəaliyyətlərini islamofobiya faktoru üzərində qururlar. Belə amillərə qarşı mübarizə aparmaq və bunun üçün də həmrəylik nümayiş etdirmək lazımdır.

# Xarici ölkə diplomatları Novruz adətlərini nümayiş etdiriblər

Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) birgə təşkilatçılığı ilə 14-17 mart tarixlərində Akademiyada “İslam Həmrəyliyi İli”nə həsr olunmuş “Novruz, multikultural dəyərlər dünya dinlərinin həmrəyliyi kontekstində” beynəlxalq festival keçirilib.

Tədbirin birinci günü Azərbaycanda fəaliyyət göstərən səfirlik və diplomatik nümayəndəlik rəsmilərinin təmsil etdikləri xalqların Novruz adətlərindən bəhs edən elmi-praktik konfrans olub.



Tədbiri giriş sözü ilə açan Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının rektoru, akademik Ömər Eldarov qonaqları salamlayaraq, Bahar bayramı münasibəti ilə hər kəsi təbrik edib. Ö.Eldarov Azərbaycanda Novruzun çox qədim dövrlərdən qeyd edildiyinə diqqət çəkərək, Qobustan qayalarında həkk olunan rəsmlərdə bu izlərə rast gəlindiyini söyləyib.

Bilik Fondunun icraçı direktoru Oktay Səmədov Novruzun dostluq, qardaşlıq, əmin-amanlıq bayramı olduğunu, bu bayramda savaşa, küsülülüyə, ayrılığa yer olmadığını deyib.

DQİDK sədrinin müavini Gündüz İsmayılov dinlə Novruzun vəhdətindən söz açıb. O, Azərbaycanda 2016-cı ilin “Multikulturalizm ili”, 2017-ci ilin “İslam Həmrəyliyi İli” olmasını tolerantlıq istiqamətindəki davamlı siyasətin məntiqi nəticəsi adlandırıb. Komitə rəsmisi dünyanın hazırkı mənzərəsinin aqressiya, kin, dağıdıcılıq xətləri ilə ştrixləndiyini deyərək, çıxış yolu kimi, yaxşıların ittifaqının yaranmasını təklif edib. Onun sözlərinə görə, bütün insanların bir əcdadı olduğuna görə, İslam Həmrəyliyi insanları həm İslam, həm də bəşər qardaşlığına çağırır.

Hindistanın Azərbaycandakı Fövqəladə və Səlahiyyətli səfiri Sanjay Rana “Hindistanın Sifi və digər ənənələrində yaz” mövzusunda çıxış edib.

Misir Təhsil və Mədəniyyət Əlaqələrinin müdiri Əhməd Sami Elaydi “Şam ən-Nəssim - Bahar bayramı” mövzusunda danışarkən təmsil etdiyi ölkədə bayram günü adamların gəzintiyə çıxdıqlarını, “Sürpriz qatar” adlı qatarla tanımadıqları, bilmədikləri bir şəhərə getdiklərini, o şəhərdə təntənəli tədbirlər keçirdiklərini deyib.

İran Mədəniyyət Mərkəzinin rəhbəri İbrahim İbrahimli “Novruz - sülh və əmin-amanlıq körpüsü” mövzusundakı çıxışında bildirib ki, İran və Əfqanıstandan başqa, heç bir ölkədə Baharın gəldiyi gün təqvimin başlandığı tarixlə eyniyyət təşkil etmir.

Yaponiyanın Azərbaycandakı səfirliyinin 3-cü katibi Saki Uçidate “Yaponiyada bahar” mövzusunda slayd nümayiş etdirib. Yaponiyada baharın necə qeyd olunduğu, insanların sakura meşələrinə necə gəzməyə çıxdıqlarından bəhs olunan slaydda yapon adət-ənənələrinin ümumi izahatları verilib

Sənətşünaslıq üzrə elmlər doktoru, professor Kübra Əliyeva “Azərbaycan xalqının milli-ənənəvi bayramı” mövzusunda çıxış edərək, Novruzun 4500 il öncə Zərdüştlük dövrünə təsadüf etdiyini arxeoloji qazıntılar zamanı aşkara çıxan əşyaların şəkilləri üzərində isbatlayıb.

Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşı, fəlsəfə üzrə fəlsəfə doktoru Piriağa İsmayılzadə tarixə ekskurs edərək, “Novruz bayramı türk xalqlarının mənəvi dəyərlər sistemində” mövzusunda faktlar səsləndirib. Natiq bildirib ki, yerin oyanışı təsərrüfatda özünü daha bariz göstərdiyindən və ellərə bərəkət, ruzi gətirdiyindən Novruz bütün bəşəriyyətin bayramı hesab olunur.

Qonaqlar tədbirin ikinci hissəsində Azərbaycan Dövlət Rəssamlıq Akademiyası tələbələrinin çəkdikləri rəsm əsərlərindən ibarət sərgiyə baxıblar, Azərbaycan, İran, Yaponiya, Misir və İraq səfirliklərinin hazırladıqları Novruz guşəsi ilə tanış olublar.

Festivalın növbəti günlərində tələbələrinin ifasında musiqi nömrələri, Novruz bayramı və yazın gəlişi ənənəsindən bəhs edən video süjet nümayiş olunub, Azərbaycanda təhsil alan əcnəbi tələbələr festivalda öz ölkələrindən qonaq olan nümayəndələrlə görüşüblər.

# BAKIDA VƏ BÖLGƏLƏRDƏ "İSLAM HƏMRƏYLİYİ İLİ" ÇƏRÇİVƏSİNDƏ TƏDBİRLƏR BAŞ TUTUB



*Azərbaycanın tolerantlıq mühitinin təşəkkül tapmasına, multikulturalizmin, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun qurulmasına, İslam dəyərlərinin dünyada təbliğinə böyük töhfələr verdiyi nəzərə alınaraq Prezident İlham Əliyevin 10 yanvar 2017-ci il tarixli Sərəncamına əsasən bu il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunub və Prezident Administrasiyası rəhbərinin Sərəncamı ilə 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunmasına dair Tədbirlər Planı təsdiq edilib. Tədbirlər Planında İslamdaxili həmrəylik, İslam və digər konfessiyalar arasında həmrəylik istiqamətləri üzrə ölkə daxilində və xaricdə keçirilməsi nəzərdə tutulan tədbirlər öz əksini tapıb. Buna əsasən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi digər qurumlarla birgə "İslam Həmrəyliyi İli" çərçivəsində mart ayı ərzində bir sıra tədbirlər keçirib. Bu qəbildən olan tədbirlər:*



**2 mart** – Zərdab Rayon İcra Hakimiyyəti (RİH) və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Ucar bölgəsi üzrə şöbəsinin birgə təşkilatçılığı ilə 2016-cı il "Multikulturalizm ili"ndə görülən işlər və 2017-ci il "İslam Həmrəyliyi İli"ndə qarşıda duran vəzifələr haqqında; Azərbaycan Respublikası Təhsil Nazirliyi (TN) və DQİDK-nın birgə imzaladığı "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafi, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" Fəaliyyət Planına uyğun olaraq Sabunçu rayonu 252 saylı məktəb-liseydə "İslam həmrəyliyinin Azərbaycan modeli" mövzusunda;

**3 mart** – TN və DQİDK-nın birgə imzaladığı Fəaliyyət Planına uyğun olaraq Nizami rayonu 220 saylı məktəb-liseydə "Milli-mənəvi dəyərlər və gənclik" mövzusunda;

**10 mart** – Kürdəmir RİH, DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Kürdəmir Rayon Polis İdarəsi və DTX-nın Kürdəmir Rayon İdarəsinin birgə təşkilatçılığı ilə "Milli-mənəvi dəyərlərimiz və məktəblilərin dini dünyagörüşü" mövzusunda; Quba şəhəri "Ərdəbil" məscidi dini icmasının təşəbbüsü ilə DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi və Quba RİH-in birgə təşkilatçılığı ilə "Həmrəylik birliyimizdir!" mövzusunda;

**13 mart** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Füzuli RİH-in birgə təşkilatçılığı ilə Füzuli rayon Horadiz şəhər "Əhli-beyt" məscidində;

**15 mart** – DQİDK-nın Ağcabədi bölgəsi üzrə şöbəsi və Ağdam RİH-in birgə təşkilatçılığı ilə Ağdam rayonu Zəngişalı kəndində;

**29 mart** – DQİDK-nın Yevlax bölgəsi üzrə şöbəsinin təşəbbüsü, Bərdə RİH və Bərdə rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Bərdə rayon Dövlət İdarəetmə və Texnologiya kollecində "İslam həmrəyliyi" mövzusunda;

**30 mart** – Bakı Dövlət Universitetinin Kitabxanaçılıq-informasiya fakültəsində "İslam həmrəyliyi və tolerantlıq" mövzusunda baş tutub.

Tədbirlərdə Dövlət Komitəsinin, şəhər və rayon icra hakimiyyətlərinin, eləcə də digər dövlət qurumlarının əməkdaşları, dini icma sədrləri, din xadimləri, rayonun təhsil və mədəniyyət işçiləri, gənclər iştirak ediblər. Çıxışlarda qeyd olunub ki, dövlət başçısı İlham Əliyevin



2016-cı ili "Multikulturalizm ili" və onun məntiqi davamı kimi bu ili "İslam Həmrəyliyi İli" elan etməsi bütün dünyaya "bir-birimizə qarşı dözümlü olaq, hörmətlə yanaşaq, həmrəy olmağı, dinlər və məzhəblər arasında dialoq qurmağı bacaraq" çağırışıdır. Bu, humanist və sülhsevər bir təşəbbüs olmaqla ölkəmizin İslam birliyinə olan həssas münasibətinin göstəricisidir.

Çıxışlarında dini radikalizmin mahiyyəti, onun milli-mənəvi və dini dəyərlərimizə qarşı olan zərərli təsirləri barədə də məlumat verən məruzəçilər dini maarifləndirmə sahəsində görülən tədbirlərin və bu istiqamətdə mütəmadi görüşlərin əhəmiyyətini vurğulayıb, ölkəmizdə "İslam Həmrəyliyi İli" elan olunmasının regional və beynəlxalq müstəvidə sabitliyin qorunmasındakı önəmindən danışıb, gənclərə radikal dini cərəyanların təsirinə düşməmək üçün müvafiq tövsiyələrini veriblər.

Tədbirlərin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.



# İNSANLIĞA QARŞI TÖRƏDİLMİŞ QƏTLİAM




Azərbaycan tarixində erməni millətçilərinin soydaşlarımızın başına gətirdikləri müsibətlər, insanlığa sığmayan vəhşiliklər onun taleyində qisasçılıq deyil, qan yaddaşının tərbiyəsinə xidmət edir. Qanlı-qadalı illərin qan damlayan hər günündən öyrənmək, yaddaşımıza həkk etmək, ən önəmlisi, nəticə çıxarmaq mənəvi borcumuzdur. 1918-ci ilin mart ayının 30-dan aprelin 1-dək Vətənimizin müxtəlif regionlarında ermənilər tərəfindən törədilmiş soyqırımı tariximizin ən dəhşətli səhifələrindəndir…

…Erməni-bolşevik silahlı dəstələrinin üç gün fasiləsiz olaraq törətdikləri cinayətlərin sırası çox acıdır: on minlərlə insan qətlə yetirilmiş, şikəst edilmiş, alçaldılmış, bir çox dini-mədəni abidələrimiz dağıdılmış, yüzlərlə kənd yandırılmış, milyonlarla manatlıq əmlak talan olunmuşdu. Müstəqil alman tədqiqatçısı Kulqe həmin dövrün mənzərəsini xatirələrində belə təsvir etmişdir: "Ermənilər müsəlman əhalisini işgəncələrlə öldürür, şəmşirlərlə parçalayır, süngü ilə dəlik-deşik edir, körpə uşaqları süngüyə keçirir, cəsədlərin burun, qulaq və başlarını kəsir, evlərə od vurub, sakinlər qarışıq yandırır, qadınları soyundurur və saçlarını bir-birinə bağlayaraq tüfəngin qundağı ilə ölüncəyə qədər döyürdülər".

Mümkün qədər daha çox amansızlıq törədərək müsəlman əhalinin gözünü qorxutmağa çalışan qaniçən Stepan Şaumyan mart hadisələrinin bolşeviklərin daşnaklarla birlikdə həyata keçirdikləri milli qırğın olduğunu həmin ilin aprel ayının 13-də Xalq Komissarları Sovetinə yazdığı məktubunda da açıq-aşkar etiraf edirdi: "Biz süvari dəstəmizə birinci silahlı hücum cəhdindən bəhanə kimi istifadə etdik və bütün cəbhə boyu hücuma keçdik... Bizim altı min nəfərə yaxın silahlı qüvvələrimiz var idi… "Daşnaksütyun"un üç-dörd min nəfərlik milli hissələri vardı ki, onlar da bizim ixtiyarımızda idi. Milli hissələrin inkişafı vətəndaş müharibəsinə qismən milli qırğın xarakteri vermişdi, lakin buna yol verməmək mümkün deyildi. Biz biləərəkdən buna yol verdik".

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra bu müsibət də unutdurulmağa çalışıldı. Hətta süni xalqlar dostluğu mühiti yaratmağa cəhd edildi. Lakin xalq qan yaddaşına hopmuş bu müsibəti unutmadı və əsrlər keçsə də unutmayacaq.

Mart qırğınlarına ilk hüquqi-siyasi qiymət Ulu Öndər Heydər Əliyevin 1998-ci il mart ayının 26-da imzaladığı «Azərbaycanlıların soyqırımı haqqında» Fərmanda verilmişdir. Həmin rəsmi sənəddə erməni məkri faktlarla ifşa edilir, onların ölkəmizə qarşı təcavüzünün köklərinə toxunulur, mərhələlərlə törətdikləri soyqırımı və terror siyasətinin mahiyyəti açılır, xalqımızın qarşılaşdığı müsibətlərin tarixinə, siyasi istiqamətlərinə nəzər salınır.

Mart soyqırımı bitməyib, o, bu gün başqa formalarda davam etməkdədir. Bu onu göstərir ki, müasir erməni ictimai fikrində məkr və təcavüz əski kökündən qurtula bilməyib. Atəşkəs elan olunsa da, cəbhə bölgələrində erməni silahlılarının terrorçuluq fəaliyyəti davam edir.

Son illər təcavüzkarlıq və "miatsum" ideyası üzərində qurulan erməni siyasətinin ifşası istiqamətində dövlətimizin gördüyü işlər bəhrəsini verməkdədir. İndi dünyaya yalançı erməni soyqırımı nağıllarını qəbul etdirmək istəyənlər üzə çıxarılan tarixi faktlar qarşısında aciz durumdadırlar. Dünyanın bir çox ölkələrinin arxivlərində ermənilərin azərbaycanlılara, ümumiyyətlə, türklərə qarşı törətdikləri dəhşətli soyqırımlar haqda kifayət qədər fakt və sənədlər vardır. O sənədlər ki, ermənilər onların müzakirə olunub dünya ictimaiyyətinə açıqlanmasını istəmirlər. Niyə? Çünki yalan ayaq tutar, amma yeriməz. Bu məşhur Azərbaycan məsəlini ermənilər də bilməmiş deyillər. Və onu da bilməmiş deyillər ki, tökdükləri nahaq azərbaycanlı qanları yerdə qalmayacaq.

***"Cəmiyyət və Din"***

# Bilik Fondunda Nardaran ziyalılarından ibarət komissiyanın ilk toplantısı olub



Nardaran əsilli elm adamları və din alimlərinin irsinin öyrənilməsi, akademik səviyyədə təbliği məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun nəzdində yaradılmış Komissiyanın martın 16-da ilk toplantısı olub.

Toplantıda Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyinin təmsilçisi Ceyhun Məmmədov fəaliyyət planının hazırlanması üçün Nardaran əhalisi arasında ideoloji istiqamətdə maarifləndirmə işləri aparmaq məqsədilə yaradılan komissiya üzvlərinin təkliflərinə ehtiyac olduğunu bildirib.

Bilik Fondunun icraçı direktoru Oktay Səmədov komissiyanın əsasnaməsinin hazırlanması təklifi ilə çıxış edib. Müasir tələblərə əsaslanaraq milli-mənəvi dəyərlərin təbliğini özündə əks etdirəcək əsasnamənin hazırlanmasında Nardaran ziyalılarını fəal olmağa çağıran icraçı direktor bildirib ki, ətraf kəndlərin ictimai xadimlərini də bu prosesə cəlb etmək məqsədəuyğundur. İcraçı direktor Nardaran qəsəbəsində müxtəlif məzmunlu maarifləndirici tədbirlər keçiriləcəyini, bu tədbirlərə Nardaran Bilik Evinin təşkilati dəstək verəcəyini diqqətə çatdırıb.

Nardaran Bilik Evinin direktoru, Milli Məclisin deputatı Dilarə Əliyeva rəhbərlik etdiyi qurumun Bilik Fondunun dəstəyi ilə gördüyü maarifləndirmə işlərindən söz açıb və belə tədbirlərin əhatə dairəsinin genişləndirilməsinin vacibliyinə toxunub.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin müavini Gündüz İsmayılov dövlətin Nardaranda həm iqtisadi, həm siyasi, həm də sosial baxımdan çox böyük irəliləyişlərə nail olduğunu bildirib. G.İsmayılov problemlərin məlumatsızlıqdan, yaxud yanlış təbliğatdan yarandığını diqqətə çatdıraraq nardaranlılarla mütəmadi ünsiyyət saxlanılmasının gərəkli olduğunu, bu prosesin məhz müxtəlif səpkili tədbirlər çərçivəsində həyata keçirilməsinin üstünlüklərini sadalayıb.

Tədbirdə komissiya üzvü olan Nardaran ziyalıları maraqlı təkliflər irəli sürüblər, Bilik Fondunun təşkilatçılığı ilə görüləcək işlərə dəstək verməyə hazır olduqlarını bildiriblər.

# Bakıda "İslam həmrəyliyi, mədəni müxtəliflik və milli identiklik" mövzusunda beynəlxalq konfrans keçirilib

Martın 29-da Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasında AMEA-nın Fəlsəfə İnstitutu, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu və Fransanın Sofia-Antipolis Universitetinin hüquq və siyasi elmlər fakültəsinin birgə təşkilatçılığı ilə "İslam həmrəyliyi, mədəni müxtəliflik və milli identiklik" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.

Tədbirdə Azərbaycanda akkreditə olunmuş ABŞ, Fransa, Mərakeş, Misir, Pakistan, Qazaxıstan və digər ölkələrin mədəniyyət mərkəzlərinin nümayəndələri, Bilik Fondunun icraçı direktoru Oqtay Səmədov, Milli Məclisin deputatı Bəxtiyar Əliyev iştirak ediblər.

Fəlsəfə İnstitutunun direktoru, professor İlham Məmmədzadə 2017-ci ilin Prezident İlham Əliyev tərəfindən "İslam Həmrəyliyi İli" elan edildiyini bildirib, onun regional və qlobal dünyəvi əhəmiyyətindən söz açıb, sülhün, əməkdaşlığın və həmrəyliyin bərqərar olmasında mühüm rolunu diqqətə çatdırıb.

"İslam həmrəyliyi, mədəni məxfilik və milli identika" mövzusunda çıxış edən fransalı alimlər Kristian Vallar "İslam və Respublika", Ksavye Latur "Fransız olmaq", Poline Türk "Dil identiklik: Fransada və Azərbaycanda azlıqların statusu", Klodin Terrazzoni-Biblok "Respublika və İslamın bölünməzliyi" məsələlərinə toxunub, müasir dövrdə İslam həmrəyliyinin əhəmiyyətini və böyük maraq doğurduğunu qeyd ediblər.

Konfransda professor Zümrüd Quluzadə, Fəlsəfə İnstitutu direktorunun müavini Eynulla Mədətli, fəlsəfə elmləri doktoru Füzuli Qurbanov, Bilik Fondunun aparat rəhbəri, professor İsaxan Vəliyev çıxış edərək İslam həmrəyliyi təcrübəsində milli dəyərlərin yeri və əhəmiyyətindən, eləcə də İslam həmrəyliyinin mənəvi əsaslarından danışıblar.



# "Həmrəylik Festivalı – 2017"

Azərbaycanda yaşayan digər azsaylı xalqların icmalarının, eləcə də müxtəlif xarici ölkə səfirliklərinin təmsilçiləri dostluq və bərəkət rəmzi olan Novruz bayramını "Həmrəylik Festivalı-2017"də böyük coşqu ilə qeyd ediblər.

Martın 14-də Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Gənclərinin Avropaya İnteqrasiyası Təşkilatının (AGAT) birgə təşkilatçılığı ilə "Həmrəylik Festivalı-2017" adlı festival keçirilib.

Tədbiri açıq elan edən AGAT sədri Nərgiz Xələf ölkəmizin multikultural dəyərlərə sadiq qaldığını, müxtəlif xalqların dostluq və sülh şəraitində birgə yaşadıqlarını qeyd edib. Bildirib ki, belə bir festivalın keçirilməsindəki əsas məqsədlərdən biri İlaxır çərşənbədə bayram ənənələrinə uyğun olaraq, ölkəmizdəki xalqların Novruz sevincini birgə yaşaması, müxtəlif mədəniyyətlərin və ənənələrin təqdimatına nail olmaqdır. Qonaqları bayram münasibətilə təbrik edən natiq ölkəmizdə 2017-ci ilin "İslam Həmrəyliyi ili" elan olunduğunu diqqətə çatdıraraq "Həmrəylik Festivalı-2017"nin bu ilə öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirib.



Dövlət Komitəsinin Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov Azərbaycanın zəngin ənənələrini özündə əks etdirən Novruz bayramının müxtəlif xalqların gənclərinin yüksək səviyyədə qeyd etməsini təqdirəlayiq olduğunu diqqətə çatdırıb. Qeyd edib ki, bu, ölkəmizin tolerantlıq və multikulturalizm ənənələrinə sadiq olduğunun bir göstəricisidir.

Azərbaycan Prezidenti Administrasiyasının İctimai-siyasi məsələlər şöbəsinin gənclər təşkilatları ilə iş sektorunun müdiri Vüsal Quliyev, Ombudsman Aparatının rəhbəri Aydın Səfixanlı, Milli Məclisin deputatı Elman Nəsirov, Mədəniyyət və Turizm Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Vasif Eyvazzadə də öz çıxışlarında ölkəmizin multikulturalizm modelinin dünya xalqları üçün bir nümunəyə çevrildiyini qeyd ediblər və Novruz bayramı ərəfəsində bu cür xoş ovqatlı, musiqili tədbirə görə təşkilatçılara təşəkkürlərini bildiriblər.




Festivalda AGAT-ın 2009-cu ildə yaratdığı "Azərbaycanda yaşayan Milli İcmaların Gənclər Təşkilatlarının Koordinasiya Şurası"na daxil olan 8 icmanın, 5 ərəb ölkəsinin, Pakistan, İndoneziya, İsrail və s. təmsilçiləri iştirak ediblər.

Festival çərçivəsində müxtəlif xalqların milli mətbəx nümunələri, əl işləri, milli geyimləri nümayiş etdirilib. Fərqli mədəniyyət təmsilçilərinin milli rəqs və ifaları da rəğbətlə qarşılanıb. Azərbaycanla yanaşı, tatar, yəhudi, türk, fələstin və digər xalqların gənclərinin rəqsi və ifaları iştirakçılarda xoş ovqat yaradıb.

# BÖLGƏ XƏBƏRLƏRİMİZ

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) paytaxt Bakıda və bölgələrdə milli-mənəvi dəyərlərimizin, o cümlədən ölkəmizdə tarixən mövcud olan tolerantlıq və birgəyaşayış ənənəsinin təbliği, dini radikalizm və ekstremizmlə mübarizə sahəsində maarifləndirmə tədbirlərini davam etdirir. Bölgələrin spesifik xüsusiyyətləri nəzərə alınmaqla təşkil olunan tədbirlərdə müxtəlif din və məzhəb mənsubları arasında dözümsüzlük, ayrı-seçkilik, qarşıdurma, zorakılıq hallarına yol verilməməsi, cəmiyyətdə radikalizm meyllərinin qarşısının alınması və dini icmaların bu işə cəlb olunması məqsədilə maarifləndirici mövzularda çıxışlar olur. Səmərəli diskussiyaların aparıldığı tədbirlərdə respublikanın müxtəlif şəhər və rayonlarının icra hakimiyyəti və hüquq mühafizə orqanı rəhbərləri, gənclər, dini icma sədrləri, din xadimləri, dindarlar, ilahiyyatçılar, ziyalılar və ictimaiyyət fəalları iştirak edirlər. Belə tədbirlər həm DQİDK-nın təşkilatçılığı, həm də Dövlət Komitəsi ilə müvafiq dövlət qurumları arasında imzalanmış Tədbirlər Planına uyğun olaraq həyata keçirilir. Cari ay ərzində bu qəbildən olan tədbirlər:*



**1 mart** – Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) Ağcabədi bölgəsi üzrə şöbəsi, Ağcabədi Rayon İcra Hakimiyyəti (RİH), Ağcabədi Rayon Prokurorluğu, Dövlət Təhlükəsizliyi Xidmətinin Ağcabədi rayon şöbəsi və Rayon Polis Şöbəsi tərəfindən 2017-ci il üçün birgə razılaşdırılmış Tədbirlər Planına uyğun olaraq Ağcabədi Rayon Polis Şöbəsində "Radikal dini təriqətlərə qarşı mübarizə" mövzusunda; DQİDK və Bakı şəhəri üzrə Təhsil İdarəsinin birgə təşkilatçılığı ilə Nəsimi rayonu 8 saylı tam orta məktəbdə "İslam həmrəyliyi dini radikalizmə qarşı mübarizə metodu kimi" mövzusunda;

**2 mart** – DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Masallı Rayon Polis şöbəsi və Masallı Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Masallı şəhər "Dəfinə" məktəb-liseyində "Gənclərin zərərli vərdişlərdən və radikal təsirlərdən qorunması" mövzusunda; DQİDK və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə Suraxanı rayon Gənclər evində "Müasir dövrdə İslam dünyasında dini ekstremizmin yaranma səbəbləri və onun fəsadları" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi və Balakən Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Balakən Rayonu Nəsimi adına şəhər 2 saylı tam orta məktəbdə "Məktəblilərin dini dünyagörüşü və təhsil" mövzusunda;

**6 mart** – DQİDK və Azərbaycan Respublikası Təhsil Nazirliyinin (TN) birgə imzaladığı "Təhsil müəssisələrində uşaq və gənclərin mənəvi inkişafı, milli-mənəvi və ümumbəşəri dəyərlər ruhunda tərbiyə olunması tədbirlərinin gücləndirilməsi haqqında" Fəaliyyət Planına uyğun olaraq Binəqədi rayonu 276 saylı orta məktəbdə "Dünyəvi dövlətdə İslam və milli birlik" mövzusunda;




**7 mart** – DQİDK və Pirallahı RİH-in birgə təşkilatçılığı ilə 168 saylı tam orta məktəbdə "Milli-mənəvi dəyərlərimiz və İslam" mövzusunda; Sumqayıt şəhəri 22 saylı tam orta məktəbdə "Fitnə" sənədli filminin nümayişi; DQİDK, Bakı şəhəri üzrə Təhsil İdarəsi və Nərimanov RİH-in birgə təşkilatçılığı ilə Nərimanov rayonunda yerləşən 291 nömrəli Ekologiya Liseyində "Dünyəvi dövlətdə multikultural və tolerant dəyərlərin vəhdəti" mövzusunda;

**9 mart** – DQİDK və TN-in birgə imzaladığı Fəaliyyət Planına uyğun olaraq Xətai rayonunda yerləşən 27 nömrəli tam məktəbdə "Azərbaycan cəmiyyətində İslam həmrəyliyi" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi, Qubadlı RİH, Qubadlı Rayon Prokurorluğu və Yeni Azərbaycan Partiyası Qubadlı rayon təşkilatı Gənclər Birliyinin birgə təşəbbüsü ilə Rayon İcra Hakimiyyətində "İslam həmrəyliyi müsəlman ölkələrinin qlobal təhdidlər qarşısında dayanıqlığının təminatçısı kimi" mövzusunda; DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi, Zərdab RİH, Zərdab Rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə "Sülh və qardaşlıq dini İslam" mövzusunda;

**10 mart** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran Dövlət Universiteti və "Türkiyə Universitetləri Məzunları" İctimai Birliyinin (TUMİB) birgə təşkilatçılığı ilə "Azərbaycan İslam sivilizasiyalarının əsas mərkəzlərindən biri kimi: Gənclərin qarşısında duran vəzifələr" mövzusunda; DQİDK və TN-in birgə imzaladığı Fəaliyyət Planına uyğun olaraq Xəzər rayonunda yerləşən 230 saylı tam orta məktəbdə "İslam həmrəyliyi sülh və bəşəri dəyərlərə sadiqlik simvoludur" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və Masallı Regional Mədəniyyət və Turizm İdarəsinin birgə təşkilatçılığı ilə Rəhim Tağıyev adına Masallı rayon Tarix-Diyarşünaslıq muzeyində "İslam Həmrəyliyi İli" ilə bağlı "İslami dəyərlər və şəhidlik" mövzusunda;

**13 mart** – DQİDK və TN-in birgə imzaladığı Fəaliyyət Planına uyğun olaraq Yasamal rayonunda yerləşən 18 saylı tam orta məktəbdə "İslam həmrəyliyi milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir" mövzusunda; DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsi və Zəngilan RİH-in birgə təşkilatçılığı ilə Zəngilan rayonu 9 saylı tam orta məktəbdə "İslam həmrəyliyinin radikallığın qarşısının alınmasında oynadığı rol" mövzusunda;

**14 mart** – DQİDK və TN-in birgə imzaladığı Fəaliyyət Planına uyğun olaraq Suraxanı rayonunda yerləşən 89 saylı tam orta məktəbdə "Milli-mənəvi dəyərlər və İslam həmrəyliyi" mövzusunda; DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala RİH və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Zaqatala rayonu Akif Bubuşov adına Muxax kənd 3 saylı tam orta məktəbdə "İslam həmrəyliyi və vətənpərvərlik" mövzusunda;

**15 mart** – DQİDK-nın Sumqayıt bölgəsi üzrə şöbəsinin təşəbbüsü ilə Xırdalan şəhəri 3 saylı lisey-məktəbdə "Fitnə" sənədli filminin nümayişi;

**16 mart** – DQİDK və TN-in birgə imzaladığı Fəaliyyət Planına uyğun olaraq Yasamal rayonunda yerləşən Ş.Əfəndizadə adına 13 nömrəli tam orta məktəbdə "İslam barışıq və həmrəylik dinidir" mövzusunda; DQİDK-nın Quba bölgəsi üzrə şöbəsi, Quba Rayon Polis Şöbəsi və Rayon Təhsil Şöbəsinin birgə təşkilatçılığı ilə Quba şəhəri 4 saylı humanitar təmayüllü məktəb-liseydə "Narkomaniyaya qarşı mübarizədə din faktoru" mövzusunda;



**17 mart** – DQİDK və TN-in birgə imzaladığı Fəaliyyət Planına uyğun olaraq Nəsimi rayonunda yerləşən Rövşən Nəsirov adına 111 saylı tam orta məktəbdə "Azərbaycan cəmiyyətində İslam həmrəyliyinin rolu" mövzusunda;

**27 mart** – DQİDK və TN-in birgə imzaladığı Fəaliyyət Planına uyğun olaraq Nəsimi rayonunda yerləşən 19 saylı tam orta məktəbdə "Milli-mənəvi dəyərlər və İslam həmrəyliyi" mövzusunda;

**28 mart** – Astara rayonu Lovayın kənd məscidində 31 Mart Azərbaycanlıların Soyqırımı Gününün xatirəsini yad etmək məqsədilə; DQİDK və TN-in birgə imzaladığı Fəaliyyət Planına uyğun olaraq Nizami rayonunda yerləşən şəhid Kamil Əyyubov adına 12 nömrəli tam orta məktəbdə "Həmrəyliyə çağırış metodu kimi" mövzusunda;

**29 mart** – Zaqatala RİH, DQİDK-nın Zaqatala bölgəsi üzrə şöbəsi, Zaqatala rayon Bölgə Qazılığının və Bakı İslam Universitetinin Zaqatala şöbəsinin birgə təşkilatçılığı ilə Bakı İslam Universitetinin Zaqatala şöbəsində "İslam həmrəyliyi din və məzhəb ayrı-seçkiliyinə qarşı" mövzusunda; DQİDK və TN-in birgə imzaladığı Fəaliyyət Planına uyğun olaraq Binəqədi rayonunda yerləşən 3 nömrəli tam orta məktəbdə "Dünyəvi dövlətdə İslam və milli-mənəvi dəyərlər" mövzusunda; DQİDK və Kürdəmir RİH-in birgə təşkilatçılığı ilə Sığırlı kənd tam orta məktəbində "Dini radikalizmə qarşı mübarizənin başlıca yolları: nəzəriyyə və təcrübə" mövzusunda; DQİDK və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə Xəzər rayon Gənclər evində "İslam həmrəyliyində məzhəblərarası tolerantlığın əhəmiyyəti" mövzusunda; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi və YAP Masallı rayon təşkilatının birgə təşəbbüsü ilə Təşkilatın inzibati binasında "İslam həmrəyliyi və müasirlik" mövzusunda;

**30 mart** – DQİDK-nın Lənkəran bölgəsi üzrə şöbəsi, Lənkəran şəhər Gənclər və İdman İdarəsi və Lənkəran Tibb Kollecinin birgə təşkilatçılığı ilə kollecdə "Fitnə" sənədli filminin nümayişi; DQİDK-nın Masallı bölgəsi üzrə şöbəsi, Azərbaycan Qarabağ Müharibəsi Əlilləri, Veteranları və Şəhid Ailələri İctimai Birliyinin Masallı rayon filialı və Masallı rayon Təhsil şöbəsinin birgə təşkilatçılığı ilə Masallı rayonu Bambaşı kənd tam orta məktəbində 31 mart Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı; DQİDK və TN-in birgə imzaladığı Fəaliyyət Planına uyğun olaraq Nərimanov rayonunda yerləşən 258 nömrəli tam orta məktəbdə "Dünyəvi dövlətdə din və milli birlik" mövzusunda baş tutub.

Tədbirlərdə çıxış edən natiqlər müasir dövrdə bəşəriyyətin bəlasına çevrilmiş dini radikalizm, ekstremizm və onun fəsadlarından, radikalizmə qarşı mübarizədə maarifləndirici, profilaktik tədbirlərin görülməsinin vacibliyindən, ölkəmizdə mövcud olan zərərli dini cərəyanların fəaliyyətindən və onlara qarşı mübarizə üsullarından bəhs ediblər. Bildirilib ki, dini radikalizm müasir dövrün ən böyük bəlalarındandır və dini biliyi olmayan, onun əsl mahiyyətini dərk etməyən gənclər bəzən bilmədən bu yola düşürlər. Dünyanın dini radikalizmin törətdiyi acı nəticələrin qarşısında aciz qaldığı bir zamanda Azərbaycan dövləti düzgün ideoloji iş apararaq ölkəmizi bu cür qarışıqlıqlardan uzaqda tuta bilib. Gənc nəsil də var qüvvəsini elmə və sağlam inkişafa həsr etməklə öz müstəqil dövlətlərini, milli-mənəvi dəyərlərini qorumağa çalışmalıdır.

Həmçinin çıxışlarda bu ilin "İslam Həmrəyliyi İli" elan olunduğu qeyd edilərək mənəvi dəyərlər sistemimizin ayrılmaz parçası olan İslam dininin humanist və sülhsevər din olduğu diqqətə çatdırılıb və bu mövzuda maarifləndirmə tədbirlərinin təşkilinin xüsusi əhəmiyyətli olduğu vurğulanıb. Məruzəçilər milli-mənəvi dəyərlərin həmrəyliyimizdə xüsusi yer tutduğundan və gənclərin milli ruhda tərbiyə almasının zəruriliyindən danışıblar.



Tədbirlərdə, eyni zamanda iştirakçıları maraqlandıran suallar cavablandırılıb və DQİDK-nın sifarişi ilə çəkilən dini radikalizmə qarşı mübarizədən bəhs edən "Fitnə" sənədli filmi nümayiş olunub.

***

**10 mart** - DQİDK-nın Ucar bölgəsi üzrə şöbəsi hüquq-mühafizə orqanları ilə birgə Kürdəmir rayonu ərazisində yerləşən dini təyinatlı ədəbiyyatın və əşyaların satışı ilə məşğul olan mağazada reyd keçirib. Baxış keçirilən mağazanın ixtisaslaşdırılmış satışla məşğul olduğu müəyyənləşdirilib. Bundan başqa, içərisində müvafiq razılığın olmadığı, nəzarət markası ilə markalanmayan 3 dini təyinatlı ədəbiyyat aşkarlanaraq hüquq-mühafizə orqanları tərəfindən götürülüb.

# LAYİHƏ ÇƏRÇİVƏSİNDƏ TƏDBİRLƏR UĞURLA DAVAM ETDİRİLİR

*Prezident İlham Əliyevin ölkədə dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği işini daha da gücləndirmək məqsədilə dini icmalara maliyyə yardımı göstərmək üçün 2014-cü il noyabrın 27-də imzaladığı Sərəncama əsasən 2017-ci ilin mart ayı ərzində də müxtəlif bölgələrdə tədbirlər keçirilib. Cəmiyyətin maariflənməsində xüsusi rol oynayan bu cür tədbirlər:*



**1 mart** – Masallı rayonu Çaxırlı kənd məscidi dini icmasının "Dini radikalizmlə mübarizədə milli-mənəvi dəyərlərin rolu" layihəsi çərçivəsində "Multikulturalizm və məzhəblərarası dialoqun təşviqi" mövzusunda; Xətai rayonu "Mirtağı" məscidi dini icmasının "Multikulturalizm Azərbaycanda həyat tərzidir" layihəsi çərçivəsində;

**2 mart** – Lənkəran rayonu Cil kəndi "Hüseyniyyə" məscidi dini icmasının "İslam həmrəyliyi dini radikalizmə qarşı mübarizə vasitəsi kimi" layihəsi çərçivəsində; İsmayıllı rayonu Basqal qəsəbə məscidi dini icmasının "Multikultural cəmiyyətdə tolerantlıq ənənələrinin qorunması" layihəsi çərçivəsində "Ənənəvi dindarlıq və radikalizm" mövzusunda;

**3 mart** – Quba rayon II Nügədi kəndi "Hacı Seyid Siracəddin" məscidi dini icmasının "Mədəni müxtəliflik: Multikulturalizmin və tolerantlığın Azərbaycan modeli" layihəsi çərçivəsində "Multikultural cəmiyyətdə birgəyaşayışı şərtləndirən əsas amillər" mövzusunda; Salyan rayonu Ərəbqardaşbəyli kəndi "Keçmiş Ərəbbəbirxanlı" məscidi dini icmasının "İslam dini və tolerantlıq" layihəsi çərçivəsində; Masallı şəhəri Qabaq Dadva məhəllə məscidi dini icmasının "İslamda həmrəylik və sülh çağırışları" layihəsi çərçivəsində "2017-ci il İslam həmrəyliyi ilidir" mövzusunda;



**6 mart** – İsmayıllı rayonu Basqal qəsəbə məscidi dini icmasının "Multikultural cəmiyyətdə tolerantlıq ənənələrinin qorunması" layihəsi çərçivəsində "İslamda vətən sevgisi" mövzusunda; Göyçay şəhər "Mərkəz" məscidi dini icmasının "Birgəyaşayış ənənələrinin qorunub saxlanılması" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlərimiz və gənclər" mövzusunda;

**7 mart** – Quba rayonu Xucbala kənd məscidi dini icmasının "İslam həmrəylik, bərabərlik dinidir" layihəsi çərçivəsində "Azərbaycanda ənənəvi İslamın əsas xüsusiyyətləri" mövzusunda; Ağsu rayonu Çiyni kənd məscidi dini icmasının



"İslam həmrəyliyində məzhəblərarası tolerantlığın önəmi" layihəsi çərçivəsində "İslamda həmrəylik" mövzusunda;

**9 mart** – Masallı şəhəri Qabaq Dadva məhəllə məscidi dini icmasının "İslamda həmrəylik və sülh çağırışları" layihəsi çərçivəsində "Milli-mənəvi dəyərlərimiz və gənclik" mövzusunda; Sumqayıt şəhəri Corat qəsəbə məscidi dini icmasının "İslam dini vəhdət və qardaşlıq dinidir" layihəsi çərçivəsində "Sağlam cəmiyyətin formalaşmasında dini dəyərlərin rolu" mövzusunda;

**10 mart** – Xəzər rayonu Binə qəsəbəsi "İmam Rza" məscidi dini icmasının "Dini radikalizmlə mübarizədə milli-mənəvi dəyərlərimizin təbliğinin rolu" layihəsi çərçivəsində; Bakı şəhəri, Qaradağ rayonu, Qızıldaş qəsəbə məscidi dini icmasının "Dini radikalizmə qarşı mübarizədə İslam həmrəyliyinin əhəmiyyəti" layihəsi çərçivəsində;

**14 mart** – Quba rayonu Xucbala kənd məscidi dini icmasının "İslam həmrəylik, bərabərlik dinidir" layihəsi çərçivəsində "Azərbaycan multikulturalizm modeli" mövzusunda;

**15 mart** – Neftçala rayonu Xolqarabucaq kəndi İmam Hüseyn məscidi dini icmasının "Dini ekstremizmin və radikalizmin multikultural cəmiyyət üçün təhlükələri" layihəsi çərçivəsində; Kürdəmir şəhər (1) məscidi



dini icmasının "İslamda həmrəylik şüuru" layihəsi çərçivəsində "İslamın birlik və bərabərliyə verdiyi əhəmiyyət" mövzusunda;

**16 mart** – Lənkəran rayonu Cil kənd "Hüseyniyyə" məscidi dini icmasının "İslam həmrəyliyi dini radikalizmə qarşı mübarizə vasitəsi kimi" layihəsi çərçivəsində Xarxatan kənd məscidində;

**17 mart** – Masallı şəhəri Qabaq Dadva məhəllə məscidi dini icmasının "İslamda həmrəylik və sülh çağırışları" layihəsi çərçivəsində "Azərbaycanda multikultural dəyərlər və tolerantlıq ənənələri" mövzusunda;

**27 mart** – Xəzər rayonu Binə qəsəbəsi "İmam Rza" məscidi dini icmasının "Dini radikalizmlə mübarizədə milli-mənəvi dəyərlərimizin təbliğinin rolu" layihəsi çərçivəsində;

**28 mart** - Ağcabədi rayonu Salmanbəyli kənd "Heydər" məscidi dini icmasının "İslam həmrəyliyi din və məzhəb ayrı-seçkiliyinə qarşı" layihəsi çərçivəsində; Sabirabad rayon Əsgərbəyli kəndi "İmam Əli" adına kənd məscidi dini icmasının "Milli-mənəvi dəyərlərimiz və müasirlik" layihəsi çərçivəsində "Dini radikalizmlə mübarizədə ənənəvi dindarlığın və milli-mənəvi dəyərlərimizin rolu" mövzusunda; Qaradağ rayonu Qızıldaş qəsəbə məscidi dini icmasının "Dini radikalizmə qarşı İslam həmrəyliyinin əhəmiyyəti" layihəsi çərçivəsində;

**29 mart** – Ağsu rayonu Çiyni kənd məscidi dini icmasının "İslam həmrəyliyində məzhəblərarası tolerantlığın önəmi" layihəsi çərçivəsində "İslamda tolerantlıq və vəhdət" mövzusunda;



**30 mart** – Sumqayıt stansiyası yaşayış massivi məscidi "Vəhdət" dini icmasının "İslam həmrəyliyi-dini vəhdətə çağırış" layihəsi çərçivəsində "Tolerant cəmiyyət və dini radikalizm təhlükəsi" mövzusunda baş tutub.

Dindarların, dini icma sədrlərinin, ziyalıların, şagird və müəllimlərin, ictimaiyyət nümayəndələrinin iştirak etdikləri bu tədbirlərdə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin mərkəzi aparatının və bölgə şöbələrinin, şəhər və rayon icra hakimiyyəti orqanlarının əməkdaşları, ilahiyyatçılar və digərləri məruzələrlə çıxış ediblər. Ölkəmizin zəngin milli-mənəvi dəyərlərindən, bu dəyərlərin qorunmasının və gənclər arasında təbliğinin əhəmiyyətindən danışan məruzəçilər tarixən ölkəmizdə məzhəblər arasında həmrəylik, dostluq, qardaşlıq münasibətlərinin hökm sürdüyünü



vurğulayıblar. Bildirilib ki, Prezident İlham Əliyev tərəfindən 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi İslam aləmində həmrəyliyə, birliyə töhfə verəcəkdir. Həmçinin məruzəçilər dini radikalizm, onun cəmiyyət və bəşəriyyət üçün fəsadları haqqında və DQİDK-nın bu istiqamətdə həyata keçirdiyi maarifləndirmə tədbirləri barədə məlumat verib, İslam dininin elmə və təhsilə verdiyi önəmin əhəmiyyətini qeyd ediblər. Tədbirlərdə iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

# "The Jewish Chronicle": Azərbaycan dinc birgəyaşayışın modeli kimi

Amerikanın "The Jewish Chronicle" qəzetində "Azərbaycan dinc birgəyaşayışın modeli kimi" sərlövhəli məqalə dərc edilib.

Məqalənin müəllifi Marşa Bronştayn yazır ki, o, keçən həftə "Salaam Şalom Qardaşlığı" təşkilatının sponsorluğu ilə yəhudi-müsəlman qadın nümayəndə heyətinin tərkibində Azərbaycanda səfərdə olub. Səfər üçün Azərbaycan ona görə seçilib ki, bu müsəlman ölkəsində bütün dinlərə hörmətlə yanaşılır.

Nümayəndə heyəti Azərbaycanda dövlət və hökumət nümayəndələri, həmçinin ölkəmizdə akkreditə olunmuş diplomatik korpusun üzvləri ilə görüşüb. Görüşlər zamanı müxtəlif məsələlər, o cümlədən ölkəmizdə qadınların iqtisadi və sosial şəraiti, müxtəlif dinlərin nümayəndələrinin birlikdə yanaşı yaşaması, enerji sektorunun inkişafı, Azərbaycan ilə Yaxın Şərq ölkələri arasında münasibətlər, regional təhlükəsizlik, təhsil və s. müzakirə edilib.

Nümayəndə heyətinin üzvləri "ADA" Universitetində, həmçinin bir sıra məscid, sinaqoq və kilsələrdə, qədim "Atəşgah" məbədində olublar. Onlar Cümə məscidində ibadətdə iştirak edib, yəhudi və müsəlman dualarının oxunduğu qəbiristana və digər mədəni obyektlərə gediblər.

Məqalədə M.Bronştayn Azərbaycan Prezidenti İlham Əliyevin Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində söylədiyi nitqdən sitat gətirərək yazır: "Multikulturalizm əsrlər boyu xalqımıza xas olan bir anlayışdır. Əsrlər boyu müxtəlif dinlərin, millətlərin nümayəndələri Azərbaycanda bir ailə kimi yaşayışlar".

Sonda müəllif qeyd edir ki, Azərbaycan müasir dünyada dinc birgəyaşayışın nümunəsidir. Azərbaycan Birləşmiş Ştatların və İsrailin strateji tərəfdaşıdır. Ölkəmiz regionun enerji təhlükəsizliyinə böyük töhfə verir, dini plüralizmin tarixini və antisemitizmin olmamasını dəstəkləyir.


THE JEWISH CHRONICLE
Friday
March 24, 2017
home sections classifieds community archives about us J Magazine directories

Look to Azerbaijan as a model of peaceful coexistence
by Marcia Bronstein, Guest Columnist

I was a participant on a 34-member Muslim and Jewish women's bridge building delegation last week to the Republic of Azerbaijan sponsored by the Sisterhood of Salaam Shalom. Azerbaijan was chosen because it is a Muslim nation that respects different faiths and treats them with genuine friendship and acceptance. Our group sought to learn from the Azeri people about their open-mindedness toward religion and peaceful coexistence.

The delegation was the first Muslim/Jewish women's venture of its kind. We were greeted with enthusiasm and had a multitude of private meetings with dignitaries and officials including the American ambassador to Azerbaijan, Robert Cekuta; Chairwoman of the State Committee for Family and Women Hirhran Huseynova; and Chairman of the State Committee on Religion Mubariz Gurbanli, as well as a meeting with Gamarkanim Javadi, the deputy chair of the Caucasian Muslim Board who is the only woman deputy of Sheykulislam in the Muslim world.

Among the principal topics discussed were women's economic and social conditions, coexistence among diverse religious groups, energy development, ties between Azerbaijan and Middle East relations, regional security and education. The group toured the Azerbaijan Diplomatic Academy University and met with the president and vice president of this English-only university that is also totally green and smart, and is a place where students are learning about current international geopolitical challenges and global leadership.

During our stay, we visited numerous mosques, several synagogues, churches and an ancient

optionshouse by E*TRADE
OptionsHouse $4.95 FLAT-RATE STOCKS
Scottrade $7.00
Save 29% on your stock commissions.
START SAVING
optionshouse by E*TRADE
$1000 in commission-free trades for 60 days

# Məscidlərə kitablar hədiyyə olunub

Martın 22-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Respublikası Prezidenti yanında Bilik Fondunun birgə təşkilatçılığı ilə "İslam Həmrəyliyi İli" ilə bağlı bölgələrdə həyata keçirilən tədbirlər çərçivəsində Lənkəran rayonu Cil kənd "Hüseyniyyə", Astara rayonu Pensər kənd "Cümə" və Pensər kənd "Hacı Teymur" cümə məscidlərinə müxtəlif adlarda kitablar hədiyyə olunub. Bununla bağlı keçirilən tədbirlərdə dindarlar, ictimaiyyət nümayəndələri iştirak ediblər.



Bilik Fondunun ölkədaxili layihələr sektorunun müdiri Hacı Abdulla hər 3 məscidə verilən bütün kitabların Prezident İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli Sərəncamı ilə nəşr olunduğunu vurğulayaraq Azərbaycan Respublikasının millətlərarası multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidməti, AMEA, DQİDK, Bilik Fondu, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Qafqaz Müsəlmanları İdarəsi tərəfindən dini maarifləndirmə və milli-mənəvi dəyərlərin təbliği sahəsində həyata keçirilən tədbirlərin müsbət nəticələr verdiyini qeyd edib.

Astara rayonu Pensər kənd "Cümə" məscidi dini icmasının sədri Hüseynağa Nəsirov və Pensər kəndi "Hacı Teymur" cümə məscidi dini icmasının sədri Fariz Veysəlov çıxışlarında hər iki məscidin tarixindən danışaraq kənd əhalisinin məzhəbindən asılı olmayaraq, hər zaman mehriban yaşadığını, cümə günlərində birgə namaz qıldığını, dini ayin və mərasimləri birgə yerinə yetirdiyini vurğulayıblar.

Lənkəran Dövlət Universitetinin müəllimi, filologiya üzrə fəlsəfə doktoru, şair Mehman Qaraxanoğlu və AMEA Gənc Alim və Mütəxəssislər Şurasının sədri, fizika üzrə fəlsəfə doktoru Famin Salmanov hər bir xalqın səviyyəsinin onun elmi, biliyi, bəşəriyyətə bəxş etdiyi alimləri, ədibləri və dövlət xadimləri ilə müəyyən olunduğunu deyiblər.

DQİDK-nın Dinşünaslıq ekspertizası şöbəsinin müdiri Nahid Məmmədov, Komitənin Lənkəran bölgəsi üzrə şöbə müdiri Qağayı Məmmədov "İslam Həmrəyliyi İli" çərçivəsində bölgələrdə silsilə tədbirlərin icrasına başlanıldığını qeyd edərək, dini maarifləndirmə sahəsində Bilik Fondu və digər qurumlarla birlikdə, koordinasiyalı işin təşkilinin müsbət nəticələr verdiyini söyləyiblər.

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi nümayəndələrinin hərbi dənizçilərlə görüşü keçirilib



Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi arasında imzalanan 2017-ci il üçün birgə Tədbirlər Planına əsasən, Hərbi Dəniz Qüvvələrində (HDQ) görüş keçirilib.

Tədbirdə HDQ-nin şəxsi heyətlə iş üzrə müavini, 1-ci dərəcəli kapitan Natiq Bağırov və DQİDK-nın şöbə müdiri Əliheydər Zülfüqarov milli-mənəvi, mədəni dəyərlərin qorunub saxlanılması, inkişaf etdirilməsi, radikal dini cərəyanlar və ekstremizmlə mübarizə mövzularında çıxış ediblər.

Sonda belə tədbirlərin dini radikalizmə qarşı mübarizə istiqamətində müsbət təsir göstərəcəyinə əminlik ifadə olunub.

## "Terror multikulturalizmə qarşı: 31 mart-Azərbaycanlıların Soyqırımı Günü"



Martın 30-da Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində (BBMM) sözügedən qurumun Elmi - Metodiki Şurasının nəzdində fəaliyyət göstərən Daimi Elmi Seminar (DES) "İslam Həmrəyliyi İli" çərçivəsində "Terror multikulturalizmə qarşı: 31 mart - Azərbaycanlıların Soyqırımı Günü" mövzusunda növbəti tədbirini keçirib.

Fransanın Sofiya-Antipolis Universitetindən gələn alimlərin, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun, AMEA-nın Fəlsəfə İnstitutunun əməkdaşlarının, ziyalı və tələbələrin də iştirak etdiyi elmi seminarda çıxış edən tədbirin moderatoru, DES-in sədri, professor Etibar Nəcəfov Azərbaycan xalqının, eləcə də bir çox xalqların məruz qaldığı dəhşətli erməni terrorunun acı nəticələrini dünya ictimaiyyətinin diqqətinə bir daha çatdırmaq və beynəlxalq səviyyədə terrora qarşı mübarizənin vacibliyini önə çəkmək məqsədilə ötən ilin yayında Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin respublikamızda, eləcə də müxtəlif ölkələrdə "Terror multikulturalizmə qarşı" layihəsinə start verdiyini diqqətə çatdırıb.

Professor Etibar Nəcəfov qeyd edib ki, layihə çərçivəsində indiyədək beynəlxalq "dəyirmi masa" və tədbirlər həyata keçirilib, bu gün keçirilən tədbir də həmin layihənin reallaşması istiqamətində növbəti addımdır. O deyib: "Bu tədbirlə biz keçən əsrin əvvəllərindən başlayaraq erməni qəsbkarları tərəfindən soyqırıma, terrora məruz qalan azərbaycanlıların faciələrini yad edirik. Elmi seminarda iştirak edən fransalı alimlər azərbaycanlı həmkarları ilə əl-ələ verərək dünyanın bilmədiyi, bəlkə də bilib qəbul etmək istəmədiyi həqiqətləri bu gün bir daha dünyaya təqdim edəcəklər".

Elmi seminarda Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri xidmətinin böyük məsləhətçisi, tarix elmləri doktoru Həcər Verdiyevanın "1918-ci il soyqırımı-erməni millətçilərinin cinayətləri tarixi sənədlərdə" mövzusunda məruzəsi dinlənilib.

Tədbirdə, həmçinin 2017-ci ilin Prezident İlham Əliyev tərəfindən "İslam Həmrəyliyi İli" elan edildiyi diqqətə çatdırılıb, onun regional və qlobal dünyəvi əhəmiyyətindən söhbət açılıb, sülhün, əməkdaşlığın və həmrəyliyin bərqərar olmasında önəmli rolu vurğulanıb.

Elmi seminarda çıxış edən Sofiya-Antipolis Universitetinin Hüquq və Siyasi elmlər fakültəsinin dekanı, professor Kristian Vallar, sözügedən universitetin dekan müavini Ksavye Latur, professorlar Klodin Terrazzioni və Poline Türk 31 Mart soyqırımı qurbanlarını anıblar. Erməni terrorunu qətiyyətlə pisləyən alimlər çıxışlarında terrorun aradan qaldırılmasında multikulturalizmin və tolerantlığın böyük əhəmiyyətini önə çəkiblər.

## UNESCO-nun baş qərargahında Novruz bayramı qeyd olunub

Parisdə UNESCO-nun mənzil-iqamətgahında Azərbaycan, Əfqanıstan, Türkiyə, İran, Hindistan, İraq, Qazaxıstan, Pakistan, Tacikistan, Türkmənistan və Özbəkistanın qurum yanındakı daimi nümayəndəliklərinin təşəbbüsü ilə Novruz bayramı təntənə ilə qeyd olunub. Günü kimi qeyd olunduğu diqqətə çatdırılıb.

İranın UNESCO yanındakı daimi nümayəndəliyinin rəhbəri Əhməd Cəlali Novruz haqqında ətraflı məlumat verib. O, Novruzun xalqların həyatında və mədəniyyətində xüsusi yeri olduğunu diqqətə çatdırıb, bu bayramı xalqları birləşdirən dəyər kimi qiymətləndirib. Novruzun xalqlar tərəfindən ruzi və bərəkət bayramı kimi qeyd edildiyini, yazın gəlişindən, təbiətin oyanışından xəbər verdiyini bildirib.




UNESCO baş direktorunun təhsil üzrə müavini Qyan Tana bildirib ki, əsrlərboyu müxtəlif dillərin, mədəniyyətlərin nümayəndələri Novruz bayramını qeyd edib. Novruz adət-ənənələri nəsildən-nəslə keçərək bu günə qədər qorunub saxlanılıb. Millətlərarası qarşılıqlı anlaşmanı, həmrəylik və dialoq kimi dəyərləri təşviq edən Novruz bayramı xalqları birliyə və dostluğa çağırış kimi humanitar ideyaları özündə təzahür etdirir.

Eyni zamanda, Novruz bayramının BMT Baş Məclisinin qərarı əsasında UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edildiyi və hər il martın 21-nin Beynəlxalq Novruz

Tədbirdə Novruz bayramının qeyd edildiyi ölkələrin incəsənət ustalarının iştirakı ilə konsert verilib. Balaca Səma ilə Ümid Azərbaycanın "Naz eləmə" rəqsini milli geyimdə ifa ediblər.

İştirakçılara Novruz bayramının qeyd edildiyi ölkələrin, o cümlədən Azərbaycanın milli mətbəx nümunələri təqdim olunub.

## SOCAR Georgia Gürcüstanda daha 19 məscidi mavi yanacaqla təmin edəcək

Gürcüstan Müsəlmanları İdarəsi (GMİ) ilə "SOCAR Georgia" şirkəti Gürcüstandakı daha 19 məscidin pulsuz olaraq təbii qazla təmin olunması barədə razılığa gəliblər.

GMİ-nin sədri Ramin İgidov deyib ki, "SOCAR Georgia" 2016-cı ilin sonunadək Gürcüstanda digər dinlərə məxsus məbədlərlə yanaşı, 20 məscidi də təmənnasız olaraq təbii qazla təmin edib. Bu ildən etibarən isə həmin siyahıya daha 19 məscid əlavə olunacaq. Bununla da Gürcüstanda "mavi yanacaqla" təmənnasız təmin olunan məscidlərin sayı 39-da çatacaq.

Ramin İgidov bu xeyirxah addımına görə, GMİ adından Azərbaycan dövlətinə, SOCAR-a və şirkətin Gürcüstan nümayəndəliyinə minnətdarlığını bildirib.

# DİNİ QURUMLARIN DÖVLƏT REYESTR MƏLUMATI

## Qeydiyyat

**Zaqatala İslam Kolleci**
**Qeydiyyat tarixi: 06 mart 2017-ci il**
**Qeydiyyat №-si: 100117D-729**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
**Hüquqi ünvanı:** Zaqatala rayonu, Zaqatala şəhəri, Heydər Əliyev prospekti 88, Zaqatala şəhər məscidi
**Fəaliyyət ərazisi:** Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
**Fəaliyyət predmeti və məqsədi:** İslam dininin əsaslarının tədrisi
**Qanuni təmsilçisi:** Malik Abdurahman oğlu Bilalov

**Gəncə İslam Kolleci**
**Qeydiyyat tarixi: 06 mart 2017-ci il**
**Qeydiyyat №-si: 100117A-730**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
**Hüquqi ünvanı:** Gəncə şəhəri, "İmamazadə ziyarətgahı" məscidi
**Fəaliyyət ərazisi:** Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
**Fəaliyyət predmeti və məqsədi:** İslam dininin əsaslarının tədrisi
**Qanuni təmsilçisi:** Tahir Yunis oğlu Abbasov

**Lənkəran İslam Kolleci**
**Qeydiyyat tarixi: 06 mart 2017-ci il**
**Qeydiyyat №-si: 100117C-731**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
**Hüquqi ünvanı:** Lənkəran şəhəri, Hacılar küçəsi, "Cümə" məscidi
**Fəaliyyət ərazisi:** Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
**Fəaliyyət predmeti və məqsədi:** İslam dininin əsaslarının tədrisi
**Qanuni təmsilçisi:** Qəni Bəhlul oğlu Axundzadə

**Quba İslam Kolleci**
**Qeydiyyat tarixi: 06 mart 2017-ci il**
**Qeydiyyat №-si: 100117C-732**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
**Hüquqi ünvanı:** Quba şəhəri, Fətəli xan küçəsi 113, "Ərdəbil" məscidi
**Fəaliyyət ərazisi:** Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
**Fəaliyyət predmeti və məqsədi:** İslam dininin əsaslarının tədrisi
**Qanuni təmsilçisi:** Naib Heybət oğlu Səttarov

**Heydər İslam Kolleci**
**Qeydiyyat tarixi: 06 mart 2017-ci il**
**Qeydiyyat №-si: 100117B-733**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
**Hüquqi ünvanı:** Bakı şəhəri, Binəqədi rayonu, Həmzə Babaşov küçəsi 6, "Heydər" məscidi
**Fəaliyyət ərazisi:** Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
**Fəaliyyət predmeti və məqsədi:** İslam dininin əsaslarının tədrisi
**Qanuni təmsilçisi:** Sabir Hüseyn oğlu Həsənli

**Nardaran İslam Kolleci**
**Qeydiyyat tarixi: 06 mart 2017-ci il**
**Qeydiyyat №-si: 100117B-734**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
**Hüquqi ünvanı:** Bakı şəhəri, Sabunçu rayonu, Nardaran qəsəbəsi, Nəsrulla Əsgərov küçəsi, "Rəhimə xanım ziyarətgahı" məscidi
**Fəaliyyət ərazisi:** Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
**Fəaliyyət predmeti və məqsədi:** İslam dininin əsaslarının tədrisi
**Qanuni təmsilçisi:** Musa Məzair oğlu Qasımov

**Bibiheybət İslam Kolleci**
**Qeydiyyat tarixi: 06 mart 2017-ci il**
**Qeydiyyat №-si: -100117B-735**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
**Hüquqi ünvanı:** Bakı şəhəri, Mirzə Fətəli küçəsi 7
**Fəaliyyət ərazisi:** Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
**Fəaliyyət predmeti və məqsədi:** İslam dininin əsaslarının tədrisi
**Qanuni təmsilçisi:** Rahib Hənifə oğlu Babayev

**Əliabad İslam Kolleci**
**Qeydiyyat tarixi: 15 mart 2017-ci il**
**Qeydiyyat №-si: 100117D-736**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
**Hüquqi ünvanı:** Zaqatala rayonu, Əliabad qəsəbəsi, Teymur Əliyev küçəsi, "Cümə" məscidi
**Fəaliyyət ərazisi:** Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
**Fəaliyyət predmeti və məqsədi:** İslam dininin əsaslarının tədrisi
**Qanuni təmsilçisi:** Darçın İslam oğlu Məmmədov

**Şəki (hafizlik) İslam Kolleci**
**Qeydiyyat tarixi: 15 mart 2017-ci il**
**Qeydiyyat №-si: 100117C-737**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
**Hüquqi ünvanı:** Şəki şəhəri, 20 Yanvar küçəsi 41, "Cümə" məscidi
**Fəaliyyət ərazisi:** Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
**Fəaliyyət predmeti və məqsədi:** İslam dininin əsaslarının tədrisi
**Qanuni təmsilçisi:** Rəhman Nadir oğlu Nuri

**Şəbnəm (qızlar) İslam Kolleci**
**Qeydiyyat tarixi: 15 mart 2017-ci il**
**Qeydiyyat №-si: 100117B-738**
**Maliyyə ili: 01 yanvar – 31 dekabr**
**Hüquqi ünvanı:** Bakı şəhəri, Mirzə Fətəli küçəsi, 7
**Fəaliyyət ərazisi:** Dövlət qeydiyyatına alınması üçün təqdim olunmuş məlumatda göstərilən hüquqi ünvan
**Fəaliyyət predmeti və məqsədi:** İslam dininin əsaslarının tədrisi
**Qanuni təmsilçisi:** Gülnarə Şaveddin qızı Həşimova

## Dəyişiklik

**Bakı şəhəri "Molokan ruhani-xristian" dini icması**
**Qeydiyyat tarixi: 14 dekabr 2009-cu il**
**Qeydiyyat №-si: 100109A2 – 91**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Kotov Nikolay Vasileyeviç, Kobzev Vasiliy Yefimoviç, Alekseyev Vasiliy İvanoviç dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Semyonov Vasiliy İvanoviç, Jemkov Sergey Mixayloviç, Fenoqenova Yekaterina İvanovna dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər. Kotov Nikolay Vasileyeviç dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Valeriy Nikolayeviç Katkov dini icmanın sədri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi:** *01 mart 2017-ci il*

**Mingəçevir şəhəri Mingəçevir kəndi "Cümə" məscidi dini icması**
**Qeydiyyat tarixi: 17 iyun 2010-cu il**
**Qeydiyyat №-si: 100110A3 – 413**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Səmədov İlham Bilal oğlu, Nəbiyev Adil İnayət oğlu, Məmmədov Davud Əziz oğlu, Ramazanov Vaqif Zülfüqar oğlu, Bayramov Namət Qaraş oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış, Məmmədov Məzahir İzzət oğlu, Bəkirov Pərviz Məhəmməd oğlu dini icmanın təsisçiləri kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişlər.
**Dəyişikliklərin qeydiyyat tarixi:** *06 mart 2017-ci il*

**Sumqayıt şəhəri Katec qəsəbə məscidi dini icması**
**Qeydiyyat tarixi: 22 yanvar 2010-cu il**
**Qeydiyyat №-si: 100110A1 – 178**
Dini icmanın ümumi yığıncağının qərarı və digər sənədlərə əsasən Cahangirov Qabil Sahib oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrindən çıxarılmış və İbrahimov Pərviz Mirzə oğlu dini icmanın təsisçisi kimi Dini qurumların dövlət reyestrinə daxil edilmişdir.
**Dəyişikliklərin qeydiyyat tarixi:** *06 mart 2017-ci il*

## Ləğv olunan dini icmalar

**Suraxanı rayonu Hövsan kəndi "Qərib Ağa" ziyarətgahı**
**Qeydiyyat tarixi: 06.02.2002-ci il**
**Qeydiyyat №-si: 40**
Suraxanı rayonu Hövsan kəndi "Qərib Ağa" ziyarətgahı təsisçilərinin 02.02.2017-ci il tarixli, 01 nömrəli protokolu ilə həmin dini icmanın ləğvi barədə qərar qəbul edilmişdir.
**Ləğv olunması:** 01 mart 2017-ci ildə qeydə alınıb.

**Bakı şəhəri Səbail rayonu "Şəbnəm" mədrəsəsi**
**Qeydiyyat tarixi: 03.06.2003-cü il**
**Qeydiyyat №-si: 190**
Bakı şəhəri Səbail rayonu "Şəbnəm" mədrəsəsinin təsisçisi Qafqaz Müsəlmanları İdarəsinin 20.02.2017-ci il tarixli, 25 nömrəli əmri ilə həmin mədrəsənin ləğvi barədə qərar qəbul edilmişdir.
**Ləğv olunması:** 02 mart 2017-ci ildə qeydə alınıb.

**Zaqatala rayonu Əliabad kənd İslam mədrəsəsi**
**Qeydiyyat tarixi: 19.04.2002-ci il**
**Qeydiyyat №-si: 94**
Zaqatala rayonu Əliabad kənd İslam mədrəsəsinin təsisçisi Zaqatala rayonu Əliabad kənd dini icmasının 15.02.2017-ci il tarixli, 4 nömrəli protokolu ilə həmin mədrəsənin ləğvi barədə qərar qəbul edilmişdir.
**Ləğv olunması:** 02 mart 2017-ci ildə qeydə alınıb.

**Şəki şəhəri İslam mədrəsəsi**
**Qeydiyyat tarixi: 22.04.2002-ci il**
**Qeydiyyat №-si: 95**
Şəki şəhəri İslam mədrəsəsinin təsisçisi Şəki şəhəri dini icmasının 17.02.2017-ci il tarixli 3 nömrəli protokolu ilə həmin mədrəsənin ləğvi barədə qərar qəbul edilmişdir.
**Ləğv olunması:** 02 mart 2017-ci ildə qeydə alınıb.

## ELAN

Siyəzən rayonu Yenikənd kənd məscidi dini icmasının dövlət qeydiyyatı haqqında Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən verilmiş 1308Si1-484 nömrəli, 15.05.2008-ci il tarixli şəhadətnaməsi, icmaya aid nizamnamə itirildiyi üçün etibarsız sayılır.

CƏMİYYƏT və DİN
№ 3 (308) / MART 2017-ci il

# Dövlət Komitəsi müsabiqə elan edir

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi dini icmalar arasında Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 94 illiyi münasibətilə "Heydər Əliyev irsi və İslam həmrəyliyi" mövzusunda məqalə müsabiqəsi elan edir.

Müsabiqəyə əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş dövlət-din münasibətlərinin tənzimlənməsi, xalqımızın milli-mənəvi dəyərlərinin və çoxəsrlik adət-ənənələrinin qorunub saxlanılması, inkişaf etdirilməsi, o cümlədən Azərbaycan dövlətinin İslam dünyasında vəhdətin, həmrəyliyin gücləndirilməsi istiqamətində gördüyü işlər barədə məqalələr göndərilə bilər. Eyni zamanda, ölkəmizdə tarixən mövcud olan multikultural və tolerant mühitdən, müxtəlif dinlərin və dini konfessiyaların nümayəndələrinin birgəyaşayış mədəniyyətindən, bu sahədə Azərbaycan təcrübəsinin dinlərarası və məzhəblərarası münasibətlərə verə biləcəyi töhfələrdən bəhs edən məqalələr də qəbul olunur.

## Kriteriyalar

- Məqalə innovativ və əhatəli olmalıdır;
- Müsabiqə elan olunduqdan sonra qəzet və ya elektron internet portallarında dərc edilməlidir;
- Məqalənin həcmi 8 000 (səkkiz min) işarədən artıq olmamalıdır. (1,5 aralıq məsafə ilə təxminən 3-4 A4 formatlı vərəq həcmində);
- Yazılar qəzetdə dərc edilərsə: A4 formatlı vərəqdə (Times New Roman 14 şrift) və 1 nüsxə qəzet şəklində Dövlət Komitəsinə təqdim olunmalıdır;
- Elektron portalda dərc edilərsə: A4 formatlı vərəqdə (Times New Roman 14 şrift) çap olunmalı və link əlavə edilərək Dövlət Komitəsinə təqdim edilməlidir.

## Mükafat

**I yer – 500 AZN    II yer – 400 AZN    III yer – 300 AZN**

**Hər biri 100 AZN olmaqla üç həvəsləndirici mükafat.**

Müsabiqənin müddəti: 3 mart – 20 aprel 2017-ci il
Əlaqə telefonları: (012) 492 65 23 / (012) 497 09 88
E-mail: redaksiya@scwra.gov.az / Ünvan: Bakı şəhəri, Əhməd Cavad 12

## Helsinkidə nəhəng məscidin tikintisi müzakirə edilir



Helsinkidə məscid tikintisi Finlandiya paytaxtının meri vəzifəsinə namizədlərin seçkiqabağı mövzularından biri olub. Layihəyə görə, məscidin sahəsi 18 min kvadratmetr təşkil edəcək.

Helsinkidə böyük məscid layihəsinin rəhbəri Piya Cardi öz bloqunda yazıb ki, bütün zəruri sənədlər, o cümlədən maliyyələşdirmə mənbələri haqqında sənədlər layihənin müzakirəsindən əvvəl Helsinki şəhərinə təqdim ediləcək. Şəhərin hakimiyyət orqanları tikinti barədə son qərarı bu ilin baharında qəbul etməlidirlər.

Artıq finlərin nəhəng məscid adlandırdığı məscidin tikintisi layihəsi hələ 2015-ci ildə hazırlanıb. Bəhreynin kral ailəsi ilkin maliyyə vəsaiti ayıracağını vəd edib. Məscidin ümumi dəyəri on və hətta yüz milyonlarla avroya çata bilər.

## Eyfel qülləsi güllə keçirməyən şüşə ilə qorunacaq



Fransanın simvolu olan Eyfel qülləsinin güllə keçirməyən şüşə ilə qorunması layihəsi Paris Bələdiyyəsində təsdiq olunub.

Anadolu Agentliyinin məlumatına görə, bələdiyyənin qərarında terror təhdidinin artdığı indiki dövrdə qüllənin təhlükəsizliyinin təmin olunmasının böyük əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Gələn ilin son üç ayı ərzində başa çatdırılması planlaşdırılan iş 20 milyon avroya başa gələcək. Qüllənin ön və arxa tərəfinə 2,5 metr hündürlüyündə güllə keçirməyən şüşə panellər yerləşdiriləcək, giriş və çıxışların olduğu sağ və sol tərəfə isə metaldan barmaqlıqlar qoyulacaq.

### Yadigar söz

*Ernest Heminquey,*
*Amerikalı yazıçı*

**Hər insan həyatı eyni sonluqla bitər. Bir insanı o birindən ayıran necə yaşadığı və necə öldüyüdür.**

## Bakı və Abşeron üzrə namaz vaxtları (Aprel -2017)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 05:03 | 06:25 | 12:45 | 17:14 | 19:19 | 20:21 |
| 2 | 05:01 | 06:24 | 12:44 | 17:14 | 19:20 | 20:22 |
| 3 | 05:00 | 06:22 | 12:44 | 17:15 | 19:21 | 20:24 |
| 4 | 04:58 | 06:20 | 12:44 | 17:16 | 19:22 | 20:25 |
| 5 | 04:56 | 06:19 | 12:44 | 17:16 | 19:23 | 20:26 |
| 6 | 04:54 | 06:17 | 12:43 | 17:17 | 19:24 | 20:27 |
| 7 | 04:52 | 06:16 | 12:43 | 17:18 | 19:25 | 20:28 |
| 8 | 04:51 | 06:14 | 12:43 | 17:18 | 19:26 | 20:30 |
| 9 | 04:49 | 06:12 | 12:42 | 17:19 | 19:27 | 20:31 |
| 10 | 04:47 | 06:11 | 12:42 | 17:20 | 19:28 | 20:32 |
| 11 | 04:45 | 06:09 | 12:42 | 17:20 | 19:29 | 20:33 |
| 12 | 04:43 | 06:08 | 12:42 | 17:21 | 19:30 | 20:35 |
| 13 | 04:41 | 06:06 | 12:41 | 17:22 | 19:31 | 20:36 |
| 14 | 04:40 | 06:05 | 12:41 | 17:22 | 19:32 | 20:37 |
| 15 | 04:38 | 06:03 | 12:41 | 17:23 | 19:33 | 20:39 |
| 16 | 04:36 | 06:02 | 12:41 | 17:23 | 19:34 | 20:40 |
| 17 | 04:34 | 06:00 | 12:40 | 17:24 | 19:36 | 20:41 |
| 18 | 04:32 | 05:59 | 12:40 | 17:25 | 19:37 | 20:42 |
| 19 | 04:31 | 05:57 | 12:40 | 17:25 | 19:38 | 20:44 |
| 20 | 04:29 | 05:56 | 12:40 | 17:26 | 19:39 | 20:45 |
| 21 | 04:27 | 05:54 | 12:39 | 17:27 | 19:40 | 20:46 |
| 22 | 04:25 | 05:53 | 12:39 | 17:27 | 19:41 | 20:48 |
| 23 | 04:24 | 05:51 | 12:39 | 17:28 | 19:42 | 20:49 |
| 24 | 04:22 | 05:50 | 12:39 | 17:28 | 19:43 | 20:50 |
| 25 | 04:20 | 05:49 | 12:39 | 17:29 | 19:44 | 20:52 |
| 26 | 04:18 | 05:47 | 12:39 | 17:30 | 19:45 | 20:53 |
| 27 | 04:17 | 05:46 | 12:38 | 17:30 | 19:46 | 20:55 |
| 28 | 04:15 | 05:44 | 12:38 | 17:31 | 19:47 | 20:56 |
| 29 | 04:13 | 05:43 | 12:38 | 17:31 | 19:48 | 20:57 |
| 30 | 04:12 | 05:42 | 12:38 | 17:32 | 19:50 | 20:59 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Mərəzə, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Fizuli, Horadiz, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Xanlar, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

## Dünyada ən çox kitab oxunan ölkələr məlum olub



Beynəlxalq Marketinq Araşdırmaları İnstitutunun keçirdiyi sorğunun nəticələrinə əsasən dünyanın ən çox kitab oxuyan ölkələri məlum olub.

Siyahıya Çin başçılıq edir. Əhalisinin sayına görə dünyada 1-ci pillədə olan ölkənin hər 7-ci vətəndaşı, demək olar ki, hər gün kitab oxuyur. Siyahıda ikinci pillədə 57 faizlə İspaniya qərarlaşıb. Rusiya bu siyahıda üçüncüdür.

Araşdırma yaşı 15-dən yuxarı olan və Amerika, Avropa və Asiya qitələrini əhatə edən 17 ölkədə 22 min insan arasında keçirilib. Məlum olub ki, kitab həvəskarları qadınlar arasında üstünlük təşkil edir. Belə ki, soruşulanların 32 faizi gündəlik kitab oxuyur. Kişilər arasında bu rəqəm 27 faizdir.

Sorğunun nəticələrinə əsasən ən az kitab oxuyucusu Hollandiya və Koreya Respublikasındadır.

## İnsan beyninin kompüterə qoşulması üçün interfeys işlənilir



"Tesla" və "SpaceX" şirkətlərinin rəhbəri İlon Mask dünyanı dəyişdirəcək növbəti layihəsini elan edib. Onun təsis etdiyi "Neuralink" adlı şirkətin məqsədi kompüterlə insan beynini əlaqələndirmək üçün neyron interfeysinin yaradılması sahəsində həllər hazırlamaqdır. Mühəndis simsiz neyrointerfeysi "neyron şəbəkə" (neural lace) adlandırır.

AZƏRTAC belta.by saytına istinadla xəbər verir ki, şirkət beyinə implantasiya edilən qurğuların yaradılması üzərində işləyəcək. Bu qurğular insanlara kompüterlərə qoşularaq öz fikirlərini rəqəmsallaşdırmağa kömək edəcək.

Qeyd edək ki, "Neuralink" ilə yanaşı, "Kernel" şirkəti də insanlarda yaddaş və öyrənmə qabiliyyətinin yaxşılaşdırılması üçün implantasiya edilən qurğu hazırlayır.

Baş redaktor Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Vasim MƏMMƏDƏLİYEV.

Ünvan: AZ 1001, Bakı şəhəri, Əhməd Cavad küçəsi, 12
Telefon: 492 65 23; 437 31 15
Tel/fax: 497 15 39
492 58 29; 437 31 15
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 345

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894